## Şəkinun kəndlərinə diametri 15-20 mm olan dolu düşüb



Dünən saat 18:00-a olan məlumata əsasən saat 15:30-15:35 radələrində Şəki rayonunun Şin kəndi və Aşağı Layısqı kəndlərində diametri 15-20 mm olan dolu düşüb.

Bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yayıb.

Həmçinin saat 16:15-16:30 radələrində Qusar rayonunun Laza kəndinə diametri 10-12 mm, saat 16:20-16:30 radələrində isə Balakən rayonunun Qazbölük kəndinə diametri 10-12 mm dolu düşüb.



## Şəhərlər artıq avtomobillər üçün yox, insanlar üçün planlanır

Şəhərsalma artıq tikinti deyil, insan və gələcək strategiyasıdır

Son iyirmi ildə Bakı yalnız memarlıq baxımından deyil, düşüncə və həyat tərzi baxımından da ciddi dəyişikliklər yaşayan şəhərlərdən birinə çevrilib.

(səh.7)

№ 19 (6500) 2026-cı il

Qiyməti 50 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 22 may - 5 iyun 2026-cı il (cümə)



# Ərdoğan təlimi izlədi

"Dostlara güvən veririk, hesab aparanlara isə güc mesajı göndəririk"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İzmirdə Azərbaycan Silahlı Qüvvələrinin iştirakı ilə keçirilən çoxmillətli "EFES-2026" hərbi təlimini izləyib.**

"Şərq" xəbər verir ki, bu barədə Türkiyə Müdafiə Nazirliyi məlumat yayıb.

Təlimləri izləyənlər arasında Türkiyənin hərbi komandanlığı və digər iştirakçı ölkələrin hərbi rəsmiləri ilə yanaşı, Azərbaycan müdafiə naziri general-polkovnik Zakir Həsənov da olub.

"Efes-2026" təlimində 50 ölkədən 10 mindən çox hərbi personal iştirak edir.

Ərdoğan çıxış edərək bildirib ki, Türk Silahlı Qüvvələri yalnız hərbi güc deyil, həm də sülh, sabitlik və təhlükəsizliyin təminatçısıdır.

O, qeyd edib ki, EFES-2026 təlimi Türkiyənin hərbi gücünü, yerli müdafiə sənayesini və strateji hədəflərini nümayiş etdirir. Onun sözlərinə görə, Türkiyə dost ölkələrə güvən verir, regionda hesab aparan tərəflərə güc mesajı göndərir.

Ərdoğan çıxışında Azərbaycanla strateji əməkdaşlığın da bölgədə sülh və sabitliyə mühüm töhfə verdiyini bildirib.



## Liderlər regional və qlobal prosesləri müzakirə edib

Prezident İlham Əliyevlə Fransa Prezidenti arasında telefon danışığı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında telefon danışığı olub.**

"Şərq" xəbər verir ki, bu barədə Prezidentin X sosial media hesabında paylaşım edilib. Paylaşımda deyilir: "Bu gün Prezident Emmanuel Makrondan (@EmmanuelMacron) telefon zəngi aldım. Telefon danışığı zamanı Azərbaycan–Fransa ikitərəfli münasibətlərinin gündəliyində duran məsələləri nəzərdən keçirdik və qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi apardıq. Biz, həmçinin regional və qlobal prosesləri müzakirə etdik".

# CHP-də "zəlzələ"

## Özgür Özəl və mövcud partiya rəhbərliyi vəzifədən uzaqlaşdırılıb



### Kamal Kılıçdaroğlu və həmin dövrdə fəaliyyət göstərən partiya orqanlarının səlahiyyətləri bərpa olunub

**Cumhuriyyət Xalq Partiyası (CHP) ilə bağlı məhkəmə prosesində mühüm qərar qəbul edilib. Ankara Regional Apellyasiya Məhkəməsinin 36-cı Mülki Kollegiyası partiyanın 4-5 noyabr 2023-cü il tarixlərində keçirilmiş 38-ci Növbəti Qurultayının "mütləq etibarsızlıq" səbəbindən hüquqi qüvvədən düşdüyünü müəyyən edib.**

Qərara əsasən, CHP sədri Özgür Özəl və mövcud partiya rəhbərliyi müvəqqəti olaraq vəzifədən uzaqlaşdırılıb, partiyanın qurultaydan əvvəlki rəhbərliyinin - keçmiş sədr Kamal Kılıçdaroğlu və həmin dövrdə fəaliyyət göstərən partiya orqanlarının səlahiyyətləri bərpa olunub.

Ankara Regional Apellyasiya Məhkəməsi CHP-nin 38-ci Qurultayının keçirilməsi ilə bağlı məhkəmə iddiasını təmin edib və həmin qurultayın keçirildiyi tarixdən etibarən etibarsız hesab olunmasına hökm verib.

Məhkəmə həmçinin bildirib ki, bu qurultay hüquqi baxımdan etibarsız sayıldığı üçün sonradan keçirilmiş bütün növbəti və növbədənkənar qurultaylar, eləcə də həmin qurultaylarda qəbul edilmiş bütün qərarlar da hüquqi qüvvəsini itirir.

(səh.2)



## İTV rəhbərliyi uğrunda yarış

Media nümayəndələri vəziyyəti dəyərləndirdi

**İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru vəzifəsinə namizədlərin sənəd qəbulu başa çatıb və artıq seçim prosesi növbəti mərhələyə keçir. Ümumilikdə 11 namizədin qatıldığı proses media ictimaiyyətində də maraqla izlənilir.**

Xatırladaq ki, İTV-nin baş direktoru vəzifəsi üçün 11 nəfər iddiaçı sənədlərini Audiovizual Şuraya təqdim edib. Bunlar aşağıdakılardır:

(səh.6)

## Hantavirus geniş yayılsa, böyük sayda ölüm halları olacaq

**Adil Qeybulla:** "Bu infeksiya total şəkildə bəşəriyyəti ağuşuna alsa, əlbəttə, səhiyyə sistemi bu qədər ağır xəstələri müalicə etməkdə aciz qalacaq"




**Virus insan orqanizmində çox ağır vəziyyət yaradır**

**Hantavirusla bağlı qorxunc proqnozlar yayılır. Türkiyəli professor Oytun Erbaş bu virusun Covid-19-dan daha ağır nəticələrə səbəb ola biləcəyini, potensial qlobal pandemiyanın bəşəriyyət tarixinin gedişatını dəyişdirə biləcəyini iddia edir. 2018-ci ildən bəri hantavirusla bağlı tədqiqatların aparıldığını bildirən O.Erbaş, sprey əsaslı peyvəndlərin hazırlandığını bildirib: "Bu, bütün dünyaya təsir edə biləcək ciddi bir virusdur".**

O.Erbaş əlavə edib ki, Covidin ölümcüllüyünü hantavirusla müqayisə etmək belə mümkün deyil.

(səh.5)

## Ukraynada son 10 gündə 6 azərbaycanlı ölüb



**Ukrayna ərazisində davam edən hərbi əməliyyatlar zamanı daha 6 azərbaycanlı ölüb.**

Həmyerlilərimiz son 10 gün ərzində baş verən döyüşlərdə həyatını itirib. (modern.az)

Həmin şəxslərin siyahısını təqdim edirik:

- Roman Musa oğlu Məmmədov – 07.09.1986-cı il təvəllüdlü, Novosibirsk vilayətinin Kolıvan kəndində yaşayıb.
- Namiq Məhərrəm oğlu Abbasov – 23.12.1969-cu il təvəllüdlü, Arxangelsk vilayətinin Koryajma şəhərində yaşayıb.
- Vüsal Allahverdi oğlu Qanbarlı – 21.02.1993-cü il təvəllüdlü, Yekaterinburq şəhərində yaşayıb.
- Tofiq Oktay oğlu Qurbanov – 09.05.1995-ci il təvəllüdlü.
- İlkin İntiqam oğlu Manafov – 01.10.1989-cu il təvəllüdlü, Altay diyarının Xlopunovo kəndində yaşayıb.
- Xanəhməd Qəhrəman oğlu Rüstəmov – 20.01.1993-cü il təvəllüdlü, Yaroslavl vilayətinin Rostov şəhərində yaşayıb.




## Paşinyan rəqiblərini aradan götürsə, ölkədə xaos yarana bilər

Karapetyan, Köçəryan və Sarukyanın seçki ərəfəsində birləşmə ehtimalı geniş şəkildə müzakirə olunur

**Ermənistanda parlament seçkilərinin vaxt çəmbəri daraldıqca, siyasi dairələrdə təzyiq mexanizmləri də güclənir.**

İyunun 7-də keçiriləcək parlament seçkilərində, Baş nazir Nikol Paşinyanın qarşısında sabiq Prezident Robert Köçəryan, rusiyalı milyarder Samvel Karapetyan və biznesmen Qaqik Sarukyan dayanır. Hakimiyyət uğrunda rinqə çıxan tərəflər bir-birini təhqir etməkdən çəkinmirlər.

(səh.5)



# BMT rəsmisindən Azərbaycana yüksək qiymət

## Amina Mohammed: "Azərbaycanın bərpa təcrübəsi postmünaqişə regionları üçün örnəkdir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də BMT Baş katibinin müavini Amina Mohammedi qəbul edib.**

"Şərq" xəbər verir ki, dövlət başçısı Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının keçirilməsi ilə bağlı göstərdiyi dəstəyə görə BMT rəhbərliyinə minnətdarlığını bildirib, tədbirin uğurlu olması üçün Azərbaycan Hökumətinin və BMT-nin Məskunlaşma Proqramının bir komanda kimi fəaliyyət göstərdiyini deyib.

WUF13-ün COP29-dan sonra iştirakçı sayına görə ölkəmizdə keçirilən ikinci mühüm qlobal tədbir olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev COP29 kimi Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının da uğurla təşkil edildiyini vurğulayıb.

Dövlət başçısı Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini deyərək, ölkəmizin gələcəkdə də bu Proqramla tərəfdaşlığını davam etdirəcəyini və Ümumdünya Şəhərsalma Forumunun digər sessiyalarının işində də fəal olacağını bildirib.

Amina Mohammed BMT-nin Baş katibi Antonio Quterreşin salamlarını dövlət başçısına çatdırıb.

Salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını Antonio Quterreşə çatdırmağı xahiş edib.



### Prezident İlham Əliyev BMT Baş katibinin müavinini qəbul edib

WUF13-ün uğurla keçdiyini deyən Amina Mohammed bununla bağlı dövlət başçısını təbrik edib. O, bu tədbirdə dünyanın müxtəlif ölkələrindən çox sayda yüksək səviyyəli qonağın iştirak etməsinin dərin təəssürat hissi yaratdığını bildirib.

Amina Mohammed Bakıda müasir şəhərsalma qaydaları tətbiq olunmaqla tarixi irslə müasirliyin vəhdətinin təmin edildiyini məmnunluqla vurğulayıb və bildirib ki, bu, paytaxtımıza xüsusi gözəllik verir.

Söhbət zamanı Azərbaycanla BMT arasında uzun illərdir uğurlu əməkdaşlığın həyata keçirildiyi və ölkəmizin bu təşkilatın fəal üzvü olduğu, onun proqram və tədbirlərinin icrasına mühüm töhfələr verdiyi vurğulanıb. İndiyədək BMT-nin müxtəlif mövzulara aid beynəlxalq tədbirlərinin Azərbaycanda yüksək səviyyədə təşkil olunması məmnunluqla xatırlanıb.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə postmünaqişə şəraitində həyata keçirdiyi bərpa və quruculuq işlərinin postmünaqişə vəziyyətindəki regionlar üçün bir nümunə olduğu bildirilib və bu xüsusda ölkəmizin təcrübəsinin BMT çərçivəsində digər ölkələrlə bölüşməsinin faydalı olacağı vurğulanıb.

Azərbaycanın "ASAN xidmət" modelinin BMT-nin dövlət xidmətləri mükafatına, həmçinin BMT-nin rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görüldüyü xatırlanıb, "ASAN xidmət"in uğurlu təcrübə kimi Afrika və Asiyanın müxtəlif ölkələrində tətbiq olunduğu qeyd edilib.

# İlin sonuna qədər Kəlbəcərin Zar kəndinə əhalinin qayıdışı nəzərdə tutulur



**Bu ilin sonuna qədər Kəlbəcərin Zar kəndinə əhalinin qayıdışı nəzərdə tutulur.**

**Bunu WUF13 çərçivəsində keçirilən "Laçın&Kəlbəcər: Urbisiddən və münaqişədən sonrakı yenidənqurmaya aparan yol" adlı tədbirdə Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Bəşir Hacıyev deyib.**

O həmçinin bildirib ki, bu gün həyata keçirilən bütün yenidənqurma və inkişaf işlərinin arxasında Kəlbəcərin uzun illər ərzində məruz qaldığı ağır dağıntılar, vandalizm və ekoloji terror dayanır:

"İşğal dövründə rayonun yaşayış məntəqələri tamamilə dağıdılıb, sosial infrastruktur məhv edilib və insanların illərlə qurduğu yaşayış mühiti viran qoyulub. Tarixi və mədəni irsimizə qarşı vandalizm aktları törədilib. Tarixi abidələr, qəbiristanlıqlar və mədəni irs nümunələri ciddi dağıntılara məruz qalıb. Eyni zamanda Kəlbəcərin zəngin təbii sərvətləri və ekoloji mühiti amansız şəkildə istismar olunub. Meşələr məhv edilib, təbii sərvətlər talan olunub, su ehtiyatlarına və biomüxtəlifliyə ciddi ziyan vurulub. Rayonun iqtisadi potensialı, turizm imkanları və illərlə formalaşmış sosial infrastrukturu darmadağın edilib. İnsanlar isə doğma yurdlarından məcburi şəkildə didərgin salınıblar. Bu səbəbdən bu gün Kəlbəcərdə həyata keçirilən layihələr təkcə tikinti və yenidənqurma prosesi deyil, həm də tarixi ədalətin bərpasını və həyatın yenidən doğma torpaqlara qaytarılmasını ifadə edir. 44 günlük Vətən müharibəsindən və torpaqlarımızın azad edilməsindən sonra Azərbaycan Respublikasının Prezidentinin tapşırıqları əsasında genişmiqyaslı və məqsədyönlü bərpa və inkişaf işləri həyata keçirilir. Bu layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətli dirçəlişini dəstəkləyir, əhalinin dayanıqlı məskunlaşmasını təmin edir, davamlı iqtisadi fəaliyyəti qoruyur və bu ərazilərin yüksək inkişaf etmiş bölgələrə çevrilməsi üçün möhkəm zəmin yaradır. Eyni zamanda həyata keçirilən proseslər işğal dövründə ərazilərimizdə törədilən dağıntıların, vandalizm aktlarının, ekoloji mühitə və mədəni irsə vurulan zərərlərin aradan qaldırılması baxımından xüsusi əhəmiyyət daşıyır".





# "Ermənistan-Rusiya gərginliyi süni yaradılıb"

## Tofiq Zülfüqarov: "Hətta Kremldən icazə almadan TRIPP layihəsi ilə bağlı heç bir iş görülmür. Vəziyyət belədir, biz reallığı görməliyik"

**Ermənistan Baş naziri Nikol Paşinyanın Rusiya ilə münasibətlərlə bağlı son açıqlamaları İrəvan-Moskva xəttində son illərdə müşahidə olunan gərginlik fonunda diqqət çəkir.**

Paşinyanın Vladimir Putinlə "dostluq münasibətləri"ndən danışması və Rusiyaya qarşı heç bir kəskin addım atılmayacağını vurğulaması, Ermənistanın xarici siyasətdə balans siyasətini davam etdirmək niyyətində olduğunu göstərir. Baş nazirin bu mesajları həm daxili auditoriyaya, həm də Qərb və Rusiya mərkəzlərinə ünvanlanmış siyasi siqnal kimi qiymətləndirilir.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə bildirib ki, Ermənistanın özündə belə bir çox şərhçilər Paşinyanı Kremlin siyasi layihəsi kimi təqdim edirlər:** "Onlar açıq deyirlər ki, bu dırnaqarası gərginlik iki tərəfdən yaradılan süni məzərədir. Bizdən və bəzi Rusiyanın təsiri altında olan şərhçilərdən başqa heç kəs onların bir-birinə münasibətinin pis olmasına inanmır. Mən həmişə deyirdim ki, bu, süni yaradılan bir gərginlikdir və müxtəlif səbəbləri var. Birinci səbəb ondan ibarətdir ki, Rusiya artıq Ermənistana qabaqlar olduğu kimi dəstək vermək imkanına malik deyil. Ona görə də Ermənistana imkan verir ki, Qərb mənbələrindən dəstək alsın. Yəni Ermənistanın maliyyə baxımından digər mənbələrdən də dəstək alması üçün gərginlik görüntüsü yaradılır. Digər tərəfdən, Rusiyaya qarşı sanksiyaları Ermənistan vasitəsilə hansısa şəkildə neytrallaşdırmaq üçün bu görüntüdən istifadə olunur. Baş nazir də məcburdur və açıq deyir ki, bizim Putinlə yaxşı münasibətlərimiz var. Xatırlayırsınızsa, Paşinyan Vaşinqtondan gələn kimi Putinlə əlaqə saxlayaraq, ona məruzə etdi ki, ABŞ ilə danışıqlar nədən ibarətdir və s. Hətta Kremldən icazə almadan TRIPP layihəsi ilə bağlı heç bir iş görülmür. Vəziyyət belədir, biz reallığı görməliyik".

**Nihat**

# CHP-də "zəlzələ"

## Özgür Özəl və mövcud partiya rəhbərliyi vəzifədən uzaqlaşdırılıb



### Kamal Kılıçdaroğlu və həmin dövrdə fəaliyyət göstərən partiya orqanlarının səlahiyyətləri bərpa olunub

**Cumhuriyyət Xalq Partiyası (CHP) ilə bağlı məhkəmə prosesində mühüm qərar qəbul edilib. Ankara Regional Apellyasiya Məhkəməsinin 36-cı Mülki Kollegiyası partiyanın 4-5 noyabr 2023-cü il tarixlərində keçirilmiş 38-ci Növbəti Qurultayının "mütləq etibarsızlıq" səbəbindən hüquqi qüvvədən düşdüyünü müəyyən edib.**

Qərara əsasən, CHP sədri Özgür Özəl və mövcud partiya rəhbərliyi müvəqqəti olaraq vəzifədən uzaqlaşdırılıb, partiyanın qurultaydan əvvəlki rəhbərliyinin - keçmiş sədr Kamal Kılıçdaroğlu və həmin dövrdə fəaliyyət göstərən partiya orqanlarının səlahiyyətləri bərpa olunub.

Ankara Regional Apellyasiya Məhkəməsi CHP-nin 38-ci Qurultayının keçirilməsi ilə bağlı məhkəmə iddiasını təmin edib və həmin qurultayın keçirildiyi tarixdən etibarən etibarsız hesab olunmasına hökm verib.

Məhkəmə həmçinin bildirib ki, bu qurultay hüquqi baxımdan etibarsız sayıldığı üçün sonradan keçirilmiş bütün növbəti və növbədənkənar qurultaylar, eləcə də həmin qurultaylarda qəbul edilmiş bütün qərarlar da hüquqi qüvvəsini itirir.

**Qərarda qeyd olunur:**

"4-5 noyabr 2023-cü il tarixli 38-ci Növbəti Seçkili Qurultaydan əvvəlki vəziyyətə qayıdılsın və həmin tarixdən əvvəl vəzifədə olan Başqan Kamal Kılıçdaroğlu və partiya orqanları fəaliyyətlərini əvvəlki qaydada davam etdirsinlər".

Bundan əlavə, 8 oktyabr 2023-cü ildə keçirilmiş CHP İstanbul İl Konqresi və həmin konqresdə qəbul edilən bütün qərarlar da etibarsız hesab olunub.

**Türkiyəli hüquqşünas Şükrü Aksu qərarı şərh edərkən bildirib ki, məhkəmə yalnız qurultayın etibarsız olduğunu müəyyən etməyib, eyni zamanda təminat tədbiri də tətbiq edib.** Onun sözlərinə görə, qərarın qüvvəyə mindiyi andan etibarən hüquqi baxımdan partiya qurultaydan əvvəlki vəziyyətə qaytarılıb:

"Hazırkı mərhələdə Özgür Özəlin, Partiya Məclisinin və Yüksək İntizam Şurasının səlahiyyətləri başa çatıb. Məhkəmə qərarında Kamal Kılıçdaroğlu, əvvəlki Partiya Məclisi və əvvəlki Yüksək İntizam Şurasının qərar qəti qüvvəyə minənədək müvəqqəti olaraq vəzifələrini icra etməsi nəzərdə tutulur".

**Aksunun sözlərinə görə, qərardan sonra hüquqi baxımdan Kamal Kılıçdaroğlu və əvvəlki rəhbər orqanlar yenidən səlahiyyət sahibi hesab olunur:**

"Əgər təminat tədbiri tətbiq edilməsəydi, Türkiyə Ali Məhkəməsinin yekun qərarınadək Özgür Özəl vəzifəsini davam etdirəcəkdi. Lakin məhkəmə təminat tədbirini də qəbul etdiyindən hazırkı rəhbərlik fəaliyyət göstərə bilməz".

Hüquqşünasın fikrincə, bu müddətdə Özgür Özəl və hazırkı rəhbərliyin partiya adından hər hansı hüquqi öhdəlik götürmək, müqavilə bağlamaq və ya təşkilati qərarlar vermək səlahiyyəti yoxdur.

**"Mütləq etibarsızlıq" nə deməkdir?**

Məhkəmənin qərarında istifadə edilən "mütləq etibarsızlıq" anlayışı hüquqi baxımdan həmin əməliyyatın ilk gündən etibarsız sayılması deməkdir.

Bu yanaşmaya görə, etibarsız hesab edilən qurultay əsasında formalaşmış bütün qərarlar və strukturlar da hüquqi əsasını itirmiş olur.

**Qərardan sonra nə baş verəcək?**

Məhkəmə qərarından Türkiyə Ali Məhkəməsinə (Yargıtay) kassasiya şikayəti vermək mümkündür. Lakin təminat tədbiri tətbiq olunduğu üçün yekun qərar çıxarılanadək partiyanın idarəçiliyi qurultaydan əvvəlki rəhbərlik tərəfindən həyata keçiriləcək.

Şükrü Aksunun sözlərinə görə, bu vəzifə məhkəmənin tapşırdığı ictimai-hüquqi funksiyadır və əvvəlki rəhbərlik görüvü işlər barədə məhkəməyə hesabat verməli olacaq.

Beləliklə, apellyasiya məhkəməsinin qərarına əsasən, yekun məhkəmə hökmü verilənədək Kamal Kılıçdaroğlu və onun dövründə fəaliyyət göstərən partiya orqanları CHP-nin idarəçiliyini üzərinə götürəcək, Özgür Özəl və hazırkı rəhbərliyin isə səlahiyyətləri dayandırılmış sayılacaq.

**Yusif**

# Xamenei Trampın tələbini rədd etdi

## İran liderinin qərarı ABŞ ilə davam edən sülh danışıqlarını çətinləşdirir



**İranın Ali rəhbəri Müctəba Xamenei zənginləşdirilmiş uran ehtiyatının ölkədə saxlanılmasını əmr edib.**

Teleqraf xəbər verir ki, bu barədə İran rəsmilərinə istinadla "Reuters" agentliyi məlumat yayıb.

Mənbələrə görə, Müctəba Xameneinin göstərişi İran hakimiyyəti daxilində konsensusu əks etdirir.

İran liderinin qərarı ABŞ ilə davam edən sülh danışıqlarını çətinləşdirir, çünki Tehranın uran ehtiyatlarının təhvil verilməsi çıxarılması ABŞ Prezidenti Donald Trampın əsas tələbidir. Tehran hesab edir ki, materialların xaricə göndərilməsi ölkəni gələcək hücumlara qarşı daha müdafiəsiz edəcək.

Hazırda kövrək atəşkəs rejimi qüvvədə olsa da, İran hərbi əməliyyatların dayandırılmasının Vaşinqtonun yeni hava hücumlarından əvvəl taktiki aldatma olduğuna inanır.

Tehran güzəşt olaraq Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) nəzarəti altında uran ehtiyatlarının azaldılması təklifini verib.



# Türk dövlətləri strateji üstünlük qazanır

## Medihanur Arğalı: "Türk dünyası romantik şüarlarla deyil, ortaq layihələrlə böyüyəcək"

**Türk dövlətləri arasında diqqət çəkən yaxınlaşma yaşanır. Bu yaxınlaşma artıq yalnız rəsmi səfərlərdə verilən isti mesajlarla məhdud deyil. Zirvələr, ortaq bəyanatlar, iqtisadi sazişlər, nəqliyyat layihələri, enerji xətləri, mədəni görüşlər və təhsil sahəsindəki təmaslar Türk dünyasının yeni bir dövrə daxil olduğunu göstərir.**

**Bir müddət əvvəl mediada yayılan TDT liderlərinin əl-ələ olan fotosu da bunu bariz olaraq sübut edir.**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru Medihanur Arğalı türk dövlətlərinin apardığı ortaqlıq və birlik siyasəti ilə bağlı "Şərq"in suallarını cavablayıb:**

**- TDT-nin güclənməsi nələri dəyişir və niyə bu qədər önəmlidir?**

- Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və digər qardaş coğrafiyalar arasında getdikcə güclənən bu bağ, əslində, uzun zamandır gözlənilən bir görüşün daha görünən hala gəlməsidir. Çünki bu ölkələr bir-birinə yad deyil. Dilləri oxşar, mədəniyyətləri qohum, tarixləri iç-içə keçmiş, sevincləri və acıları bir-birinə toxunmuş xalqlardan söz edirik. Lakin uzun illər boyunca bu yaxınlıq daha çox qəlblərdə qalmışdı. Bu gün isə qəlbdəki yaxınlığın dövlət siyasətlərinə, institutlara və konkret layihələrə çevrilməyə başladığı bir dövrə şahidlik edirik.

Türk Dövlətləri Təşkilatının güclənməsi də məhz bu səbəbdən vacibdir. TDT, Türk dünyasının yalnız keçmişə baxan bir xatirə birliyi olmadığını, gələcəyə yönəlmiş əməkdaşlıq zəmini qurmaq istədiyini göstərir. Ortaq tarix əlbəttə dəyərlidir. Ortaq mədəniyyət də çox qiymətlidir. Lakin bugünün dünyasında yalnız keçmişlə ayaqda qalmaq mümkün deyil. Dövlətlərin birlikdə istehsal, ticarət, böhranlara qarşı dayanıqlıq göstərmək və xalqlarına daha yaxşı imkanlar təqdim edə bilməsi lazımdır.

**- Regionda baş verənlərin bu inteqrasiya prosesinə təsirini necə oxuyursunuz?**

- Bu gün dünyada böyük bir dəyişiklik baş verir. Qlobal tarazlıqlar əvvəlki kimi sabit deyil. Güc mərkəzləri yer dəyişdirir. Ticarət yolları yenidən formalaşır. Enerji təhlükəsizliyi bütün ölkələr üçün həyati bir məsələ halına gəlir. Müharibələr, regional böhranlar, miqrasiya hərəkətləri, iqtisadi dalğalanmalar və texnoloji transformasiya türk dövlətlərini daha diqqətli davranmağa məcbur edir.

**- Bu yaxınlaşma daha çox siyasi seçimdir, yoxsa tarixi bir zərurət?**

- Belə bir dövrdə Türk dövlətlərinin bir-birinə yaxınlaşması sıradan diplomatik seçim deyil. Bu, zamanın ruhunu düzgün oxuma cəhdidir.

Orta Asiyadan Qafqaza, Anadoludan Xəzərə uzanan geniş coğrafiya bu gün yenidən strateji dəyər qazanır. Bu coğrafiya Şərq ilə Qərb arasında təbii keçid sahəsidir. Tarix boyunca karvan yollarının, mədəniyyət mübadilələrinin, elm və ticarət mərkəzlərinin üzərində yüksələn bu xətt indi müasir nəqliyyat dəhlizləri və enerji layihələri ilə yenidən əhəmiyyət qazanır. Türk dövlətləri bu xəttin mərkəzində yer alır. Buna görə də onların arasındakı əməkdaşlıq yalnız öz gələcəkləri baxımından deyil, həm də regional sabitlik və qlobal ticarət baxımından diqqətlə izlənir.

**- Təşkilatın real gücə çevrilməsi üçün hansı addımlar atılmalıdır?**

- TDT-nin güclənməsi, hər şeydən əvvəl Türk dövlətlərinin öz aralarındakı münasibətləri daha institusional bir zəmində qurması mənasına gəlir. Bir-birini sevən cəmiyyətlərin olması əlbəttə gözəldir. Lakin sevgi təkbaşına kifayət deyil. Sevginin yanında mütəmadi işləyən institutlar, ortaq hədəflər, qarşılıqlı etimad və uzunmüddətli layihələr də lazımdır. Zirvələrin keçirilməsi, ortaq qərarların qəbul olunması, nəqliyyat və ticarət sahələrində addımların atılması, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın artması bu baxımdan dəyərlidir.

**- İqtisadi əməkdaşlığın Türk dünyasına təsiri nədir?**

- Bu prosesin ən vacib yönlərindən biri iqtisadiyyatdır. Türk dövlətləri arasında ticarətin artması, investisiya mühitinin inkişaf etməsi, gömrük keçidlərinin asanlaşması və nəqliyyat xətlərinin güclənməsi xalqların həyatına birbaşa təsir edir. Bir ölkədən digərinə mal göndərmək asanlaşdıqda iş adamları daha çox tərəfdaşlıq qurur. Nəqliyyat xərcləri azaldıqda məhsullar daha sürətli və daha əlverişli şərtlərlə bazara çatır.

Ortaq sərmayələr artdıqda məşğulluq imkanları genişlənir. Buna görə Türk dünyası fikrinin həqiqi mənada güclənməsi iqtisadiyyatda əldə olunan konkret uğurlarla yaxından bağlıdır. Enerji sahəsi də bu yaxınlaşmanın mühüm başlıqlarından biridir. Xəzər hövzəsi, Orta Asiya resursları, Azərbaycanın enerji təcrübəsi və Türkiyənin tranzit ölkə mövqeyi birlikdə düşünüldükdə, Türk dövlətləri arasında güclü bir enerji əməkdaşlığı potensialının olduğu görünür. Enerji artıq yalnız iqtisadi bir məsələ deyil. Eyni zamanda təhlükəsizlik, müstəqillik və xarici siyasət məsələsidir. Buna görə də enerji xətlərində, bərpa olunan mənbələrdə və enerji təchizat təhlükəsizliyində qurulacaq tərəfdaşlıqlar Türk dünyasının əlini daha da gücləndirə bilər.

**- Təhlükəsizlik sahəsində əməkdaşlıq niyə bu qədər vacibdir?**

- Təhlükəsizlik məsələsi nəzərdən qaçırıla bilməz. Bu gün heç bir ölkə ətrafındakı proseslərdən tamamilə müstəqil şəkildə yaşaya bilmir. Qafqazdakı bir böhran Orta Asiyaya təsir edə bilər. Orta Asiyadakı bir təhlükəsizlik problemi isə Türkiyənin gündəminə daxil ola bilər. Enerji yollarındakı bir kəsinti, ticarət dəhlizlərindəki bir pozuntu bütün bölgəyə sirayət edə biləcək gücdədir. Buna görə Türk dövlətlərinin təhlükəsizlik sahəsində daha çox məsləhətləşməsi, böhranları birlikdə dəyərləndirməsi və ortaq düşüncə formalaşdırması son dərəcə vacibdir.

Lakin burada incə bir məqamı da vurğulamaq lazımdır. Türk Dövlətləri Təşkilatının güclənməsi hər hansı bir ölkəyə qarşı düşmən bir cəbhə qurmaq mənasına gəlməməlidir. Bu prosesi belə oxumaq həm natamam, həm də yanlışdır. Əsas məsələ Türk dövlətlərinin öz aralarında daha güclü bir həmrəylik qurması, öz maraqlarını daha yaxşı müdafiə etməsi və regional sülhə töhfə verməsidir. Qardaşlıq hissi, sağlam düşüncə və sülh yönlü diplomatiya ilə birləşdikdə daha davamlı nəticələr doğurur.

**- Fərqli xarici siyasət prioritetləri olan türk dövlətləri arasında balans necə qoruna bilər?**

- Bu mənzərəni yalnız həyəcanla izah etmək olmaz. Türk dünyasının qarşısında ciddi sınaqlar var. Hər bir Türk dövlətinin öz xarici siyasət balansları, iqtisadi prioritetləri və regional həssaslıqları mövcuddur. Bəziləri Rusiya ilə dərin əlaqələrə malikdir. Bəziləri Çin ilə intensiv iqtisadi bağlar qurmuş vəziyyətdədir. Bəziləri Qərblə daha yaxın təmas içindədir. Türkiyənin gündəliyi, Qazaxıstanın prioritetləri, Özbəkistanın islahat prosesi, Qırğızıstanın ehtiyacları, Azərbaycanın isə təhlükəsizlik həssaslıqları fərqlidir. Bu fərqliliklər təbii və anlaşılandır.

Vacib olan, bu fərqliliklərə baxmayaraq, ortaq bir zəmin yarada bilməkdir. Əslində, həqiqi birlik hər kəsin eyni düşünməsi demək deyil. Həqiqi birlik, fərqli şərtlərə malik ölkələrin ortaq maraqlarda görüşə bilməsidir. Türk dünyasının bu gün ehtiyac duyduğu da məhz budur. Böyük cümlələrdən çox səbirli diplomatiyaya, emosional ifadələrdən çox tətbiq oluna bilən layihələrə ehtiyac var.

**- Mədəniyyət və təhsil sahəsinin bu prosesə təsiri nədən ibarətdir?**

- Mədəniyyət və təhsil sahəsi TDT-də xüsusi yer tutur. Çünki dövlətlər arasında imzalanan sazişlər vacib olsa da, xalqlar arasında qurulan bağ daha davamlıdır. Bir qazax gənci Türkiyədə təhsil aldıqda, bir türk tələbə Özbəkistanın tarixi şəhərlərini tanıdıqda, bir azərbaycanlı akademik qırğızıstanlı həmkarı ilə ortaq tədqiqat apardıqda Türk dünyası fikri kağız üzərində qalmır. Bu, insanların həyatında real qarşılıq tapır.

**- Dil və kommunikasiya fərqlərinin yaratdığı problemləri necə aradan qaldırmaq olar?**

- Dil məsələsi də burada mühüm mövzudur. Türk ləhcələri arasında böyük oxşarlıqlar olmasına baxmayaraq, uzun illər ərzində fərqli əlifbalar, fərqli təhsil sistemləri və qırılmış kommunikasiya kanalları səbəbilə cəmiyyətlər bir-birini kifayət qədər tanıya bilməyib. Ortaq əlifba müzakirələri, nəşriyyat fəaliyyəti, ortaq media layihələri və mədəni proqramlar bu qopmanı azalda bilər. İnsanlar bir-birinin mahnısını, ədəbiyyatını, filmini, tarixini və gündəlik həyatını daha çox tanıdıqca qardaşlıq hissi daha səmimi bir hal alır.

**- Gənclər Türk dünyasının gələcəyində hansı rolu oynayır?**

- Əslində, Türk dünyasının ən böyük gücü gənc nəsildir. Gənclər sərhədlərin o tayına daha asan baxa bilir. Rəqəmsal dünyada daha sürətli ünsiyyət qururlar. Ortaq layihələrə, sahibkarlığa, texnologiyaya və təhsilə daha açıqdırlar. Əgər TDT bu gənc nəsillərə real imkanlar yarada bilsə, yaxınlaşma yalnız dövlətlərarası bir proses olmaqdan çıxar. Yeni bir nəslin ortaq gələcək arzusuna çevrilər.

**- Türkiyənin bu prosesdə rolu necə qəbul edilməlidir?**

- Burada Türkiyənin də üzərinə mühüm vəzifələr düşür. Türkiyə tarixi irsi, iqtisadi potensialı, diplomatik təcrübəsi və mədəni təsiri ilə Türk dünyasında bir çəkiyə sahibdir. Lakin bu çəki diqqətlə istifadə edilməlidir. Qardaşlıq dili üstünlük dili ilə qarışdırılmamalıdır. Türk dünyasında davamlı etimad qurmağın yolu qarşılıqlı hörmətdən, bərabər tərəfdaşlıq anlayışından və hər ölkənin həssaslıqlarını nəzərə almaqdan keçir. Türkiyənin bu prosesdə konstruktiv, əhatəli və səbirli bir rol üstlənməsi böyük əhəmiyyət daşıyır.

**- Azərbaycanın son illərdə artan regional rolu TDT-yə nə qazandırır?**

- Azərbaycanın mövqeyi ayrıca məna daşıyır. Qarabağ zəfərindən sonra Azərbaycanın bölgədə artan özünəinamı Türk dünyası daxilində yeni bir dinamika yaratdı. Türkiyə ilə Azərbaycan arasındakı güclü bağ digər Türk dövlətləri ilə münasibətlərdə də ruhlandırıcı bir nümunə kimi qəbul edilir. Bakı Ankara ilə Orta Asiya arasında mühüm körpü rolunu oynayır. Xəzər üzərindən keçən nəqliyyat xətləri və enerji layihələri nəzərə alındıqda Azərbaycanın bu prosesdəki əhəmiyyəti daha da artır.

**- Orta Asiya ölkələri bu böyük inteqrasiya modelində hansı mövqeyi tutur?**

- Orta Asiya Türk respublikaları isə bu böyük mənzərənin mərkəzində yer alır. Qazaxıstan geniş coğrafiyası və enerji resursları ilə, Özbəkistan əhali gücü və islahat addımları ilə, Qırğızıstan mədəni canlılığı və strateji mövqeyi ilə, Türkmənistan isə enerji potensialı ilə Türk dünyasının əvəzolunmaz parçalarıdır. Bu ölkələrin hər biri öz yolunu gedərkən, TDT çətiri altında ortaq gələcək axtarışına töhfə verir.

**- Türk xalqlarının gözləntiləri türk dövlətlərinin siyasəti ilə nə qədər üst-üstə düşür?**

- Bütün bu gözəl mənzərəyə baxmayaraq, xalqların gözləntilərini unutmamaq lazımdır. İnsanlar böyük strateji cümlələrdən daha çox, həyatlarına toxunan nəticələri görmək istəyirlər. Bir tələbə təqaüd imkanlarının artmasını istəyir. Bir iş adamı sərhəd keçidlərinin asanlaşmasını istəyir. Bir ailə səyahət edərkən daha az bürokratiya ilə qarşılaşmaq istəyir. Bir sənətçi öz əsərini qardaş ölkələrdə daha rahat tanıtmaq istəyir. Bir fermer məhsulunu yeni bazarlara çıxarmaq istəyir. Bir gənc başqa bir türk ölkəsində işləyə bilmək, təhsil ala bilmək və özünü inkişaf etdirmək yollarını axtarır.

Əgər Türk Dövlətləri Təşkilatı bu sahələrdə konkret nəticələr yarada bilsə, cəmiyyətlərin gözündə onun dəyəri daha da artar. Çünki institutları davamlı edən şey yalnız liderlərin iradəsi deyil. Xalqın o quruma inanması, onu öz həyatında hiss etməsi və ondan fayda görməsidir.

Bu gün Türk dünyasında yaşanan yaxınlaşma, əslində, gecikmiş bir tanışlığın yenidən başlaması kimidir. Bir-birini uzaqdan sevən qardaşlar indi eyni süfrəyə daha tez-tez otururlar. Bir-birinin dərdini daha yaxından dinləyirlər. Ortaq məsələlər üzərində daha çox danışırlar. Bu belə başlı-başına dəyərlidir.

**- Bundan sonrakı mərhələlərdə gözləntilər nələrdir?**

- Bundan sonrakı mərhələ daha önəmlidir. Çünki tarixi bağlar gözəl bir başlanğıc yaradır, lakin gələcəyi qurmaq üçün plan, zəhmət və qətiyyət lazımdır. Türk dünyası romantik cümlələrlə deyil, dəmir yolları ilə, limanlarla, məktəblərlə, universitetlərlə, texnologiya mərkəzləri ilə, ortaq sərmayələrlə və güclü diplomatiya ilə böyüyür. Qardaşlıq hissi bu quruluşun ruhudur. İnstitusional əməkdaşlıq isə bu ruhu ayaqda saxlayan bədəndir.

Türk Dövlətləri Təşkilatının güclənməsi Türk dövlətlərinin dəyişən dünyada tək qalmaq istəmədiyini göstərir. Bu, ortaq yaddaşın ortaq ağıla çevrilmə cəhdidir, keçmişdən gələn bağların gələcəyə daşınmasıdır, eyni dili fərqli ləhcələrlə danışan cəmiyyətlərin eyni yönə baxma istəyidir.

**- Bu proses uğurlu olarsa, 10-20 il sonra Türk dünyası necə bir mənzərəyə çevrilə bilər?**

- Bu gün Türk dünyasının qarşısında böyük bir fürsət var. Bu fürsət yaxşı dəyərləndirilərsə, TDT yalnız iclaslarla xatırlanan bir təşkilat olmaz. Xalqların bir-birinə daha çox yaxınlaşdığı, ticarətin inkişaf etdiyi, gənclərin yeni imkanlar tapdığı, mədəniyyətin canlandığı və bölgənin daha güclü bir səs qazandığı davamlı quruluşa çevrilər.

Türk dünyası uzun müddət bir-birini qəlbdən tanıdı. İndi isə sıra bir-birini yollarla, məktəblərlə, layihələrlə, ticarətlə və ortaq institutlarla daha yaxından tanımaqdadır. Əgər bu həyata keçirilərsə, Türk Dövlətləri Təşkilatı yalnız bu günün deyil, sabahın da ən mühüm regional reallıqlarından biri halına gələr.

**Banuçiçək Kalbalıyeva**

# Pezeşkianın açıqlaması İranın hazırkı vəziyyətinin açıq etirafıdır



## Əfşar Süleymani: "İran xalqının həmrəyliyi yalnız meydanda yox, gündəlik həyatda da hiss olunmalıdır"

**Son 40 il ərzində İrana qarşı tətbiq olunan sanksiyalar və İsraillə ABŞ-nin hücumları ölkənin iqtisadi imkanlarını təhlükə altına salıb. 2025-ci ilin dekabr ayında rialın kəskin dəyər itirməsi, inflyasiyanı 42 faiz artıraraq, xalqın səbr kasasını daşıran son zərbə oldu. 2026-cı il fevralın 28-dən etibarən ABŞ və İsrailin 41 gün davam edən aramsız hücumları, İran iqtisadiyyatını dərin böhranla üz-üzə qoydu.**

Problemin ciddiliyi İran prezidentini xalqa xəbərdarlıq etməyə vadar edib. Məsud Pezeşkian əyalət rəhbərləri ilə görüşündə, idarəetmədə istifadə olunan metodların mövcud problemlərin həllinə tam cavab vermədiyini bildirib. Onun sözlərinə görə, su, elektrik enerjisi, qaz və benzin istehlakının idarə olunması üçün ətraflı plan hazırlanmalı, ölkə problemlərlə üzləşməyə davam edəcək. Prezident İranı, mövcud vəziyyətdən çıxarmaq üçün xalqı istehlaka qənaət etməyə və idarəçilikdə əməkdaşlığa çağırıb.

**Mövzu ilə bağlı İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymani "Şərq"ə bildirib ki, Pezeşkianın enerji istehlakı ilə bağlı dedikləri İranın hazırkı vəziyyətinin açıq etirafıdır:** "Ölkədə enerji problemi yeni yaranmayıb. Son hərbi gərginlik və bəzi enerji obyektlərinin hədəfə alınması mövcud problemi daha da dərinləşdirdi. Belə bir vəziyyətdə dövlətin xalqdan qaz, elektrik və benzin istifadəsində qənaət tələb etməsi, zərurətə çevrilmiş məsələdir. İranda enerji resursları uzun illər ucuz olduğu üçün xalq istehlaka ciddi yanaşmayıb. Müharibədən çıxan hər bir ölkə təbii ehtiyatların yenidən bərpa edilməsi üçün qənaət mexanizmlərini işə salmağa məcburdur. Belə şəraitdə dövlətin imkanları məhdudlaşır və prioritetlər yenidən müəyyən edilir. Enerji təminatı, ərzaq təhlükəsizliyi, logistika və ictimai təhlükəsizlik məsələləri isə əsas diqqət mərkəzinə çevrilir".

**Sabiq səfirin sözlərinə görə, İran xalqının həmrəyliyi yalnız meydanda yox, gündəlik həyatda da hiss olunmalıdır:** "Bəzən bir lampanı boş yerə yandırmamaq, lazım olandan artıq yanacaq işlətməmək də ölkənin ümumi yükünü azaltmağa kömək olur. Əgər İranda enerji istehlakı Avropadakı kimi planlı və məsuliyyətli şəkildə həyata keçirilsəydi, bu gün nə elektrik kəsintiləri olardı, nə də qaz və yanacaqla bağlı problemlər qabarıq şəkildə üzə çıxardı. Enerji israfı davam etdiyi müddətdə, hətta ən zəngin resurslara sahib ölkə belə zamanla problemlərin ağırlığı altında əziləcək. İran xalqı müharibənin aldığı imkanları geri qaytarmaq məqsədilə Pezeşkianın çağırışlarını dinləməli, buna uyğun hərəkət etməlidir. Necə deyərlər, el bir olsa, dağ oynadar yerindən, söz bir olsa zərbi kərən sındırar".

**Aybəniz Səfərova**

# Bakı-Tbilisi qatarının yolunu həsrətlə gözləyənlər heç sevinmədi

## Zəlimxan Məmmədli: "Gedişhaqqı açıqlanandan bəri bir nəfərin belə məmmun qaldığını görmədim"



**Məlum olduğu kimi 26 may 2026-cı il tarixindən etibarən Bakı-Tbilisi sərnişin qatarlarının fəaliyyəti bərpa ediləcək. Soydaşlarımız 6 illik fasilədən sonra gediş-gəlişin bərpasına sevinsələr də, açıqlanan qiymətlər hər kəsdə şok effekti yaradıb.**

Bakı-Tbilisi marşrutu üzrə minimum qiymət 81 manatdır. Qiymətlərə ölkədaxili marşrutlarda olduğu kimi, həftə sonları, bayram günləri və yer seçimi də təsir göstərir. Səfərin müddətindən asılı olaraq ödənilən səyahət sığortasının qiymətini də nəzərə aldıqda, ümumi xərc təxminən 100 manatı ötür. Bakı-Tbilisi aviabileti qiymətləri isə təqribən 167 AZN-dən başlayır. Qiymətlərə nəzər saldıqda, qatarla təyyarə arasında böyük fərqin olmadığını görmək mümkündür.

**Məsələ ilə əlaqədar Borçalı İctimai Birliyinin sədri Zəlimxan Məmmədli "Şərq"ə bildirib ki, bəzi sahələr üzrə qiymət siyasəti Azərbaycan xalqının maraqlarına uyğun müəyyən olunmur:**

"Bakı-Tbilisi qatar yolunun açılmasını həsrətlə gözləyənlər sevinsə də, qiymət məsələsi onları hüsrana uğratdı. Gedişhaqqı açıqlanandan bəri bir nəfərin belə məmmun qaldığını görmədim. Əgər qatarla gedişhaqqının məbləğini minimum əməkhaqqı, qazilərə verilən müavinətlər və soydaşlarımızın qazancı ilə müqayisə etsək, kifayət qədər yüksək olduğunu görə bilərik. Əslində qiymətlər ortalama 30-50 manat arasında dəyişməli idi. Təəssüf ki, düz sözə qulaq asan da yoxdur".

**Z.Məmmədlinin sözlərinə görə, 44 günlük müharibədən zəfərlə çıxan qalib xalqın maraq və düşüncələri nəzərə alınmalıdır:**

"Bir sözlə, Tbilisiyə qatar reyslərinin bərpa edilməsi xalq arasında həm sevinc, həm də bədbinlik yaratdı. Daxili və xarici siyasətdə ilk növbədə cəmiyyətin maraqları, daha sonra isə digər məqamlar diqqətdə saxlanılmalıdır. Əvvəllər təyyarə daşımalarında monopoliya olduğuna görə, ailəsinin həsrətini çəkənlərin ora getməyə maddi imkanı çatmırdı. İndi isə həmin monopoliya qatar daşımaları üzərində qurulub. Quru sərhədlər açılmalıdır ki, insanlar büdcələrinə uyğun olaraq şəxsi avtomobilləri ilə səfər edə bilsinlər".

**Aybəniz**



# ABŞ artıq qlobal hegemon statusunu böyük ölçüdə itirib

## Hüsamettin İnaç: "Rusiya və Çin Vaşinqtona qarşı ortaq cəbhə formalaşdırır"

**Beynəlxalq münasibətlər sistemində ciddi dəyişikliklər baş verir. Xüsusilə Rusiya-Ukrayna, ABŞ-İran müharibəsindən sonra qlobal siyasətdə yeni gərginliklər yaranıb. Böyük dövlətlər arasında rəqabət artır, regional münaqişələr yenidən alovlanır. Beynəlxalq təşkilatların təsiri isə əvvəlki qədər güclü deyil. Eyni zamanda Çin və Rusiyanın yaxınlaşması, Yaxın Şərq və Asiyada artan gərginliklər dünyanın daha mürəkkəb və həssas dövrə daxil olduğunu göstərir.**

**Beynəlxalq siyasət üzrə ekspert Dr.Hüsamettin İnaç "Şrq"ə son bir neçə il ərzində və xüsusən də Ukrayna-Rusiya müharibəsi ilə birlikdə artıq Amerikanın hegemon kimliyini mühüm ölçüdə itirdiyini deyib:** "Beynəlxalq hüququn, eyni zamanda İkinci Dünya müharibəsindən sonra Amerikanın təsis etdiyi beynəlxalq qurumların deмək olar ki, hamısı çöküb və funksiyasız hala gəlib. Dolayısıyla bu çöküş bir neçə mühüm nəticəyə yol açır.

Bunlardan birincisi, dünyanın hər tərəfində "frozen conflict" dediyimiz dondurulmuş münaqişə sahələrinin yenidən meydana çıxmasına səbəb oldu. Məsələn, Azərbaycan-Ermənistan müharibəsi bunlardan biridir. Eləcə də Liviyadakı parçalanma və dövlət quruculuğu məsələləri, yaxud Somalidə,

**"Amerikanın aqressiv siyasəti yeni dünya qarşıdurmasını sürətləndirir"**

Sudanda yaşadıqlarımız kimi hadisələr yaşanmağa başladı. Bu dövrdə Amerika çöküşünün fərqinə vardığı üçün hər yerə, yaralı heyvan kimi hücum etmədi. Çünki bir şəkildə hələ də qlobal hegemon güc olduğunu göstərmək və sübut etmək axtarışı var. Həm də bu itkinin bir şəkildə qarşısını almaq üçün ümidsiz mübarizə var. Ukrayna müharibəsində Ukraynanın yeraltı sərvətlərinə əl qoyması, Qrenlandiyaya göz dikməsi, Kanadanı istəməsi, Venesuelada etdiyi haqsız istila və işğal, Qəzzadakı soyqırıma göz yumması kimi hadisələr bunları göstərən ünsürlərdir".

**Analitik bildirib ki, İranda Hörmüz boğazı üzərindən qlobal bir böhranın yaradılması Amerikanın gəldiyi nöqtəni və acizliyini göstərir:** "Digər tərəfdən burada Çinin getdikcə yüksələn gücə çevrildiyini, Birləşmiş Millətlər Təhlükəsizlik Şurasının bütün üzvlərinin - İngiltərə, Fransa, Almaniya, Amerika daxil olmaqla hamısının Pekini ard-arda ziyarət etməyə başladıqlarını görürük. Bu mərhələdə Şərqin qazandığı ciddi bir dövr aralığı söz mövzusudur. Xüsusilə məhz bu nöqtədə Rusiyanın ciddi şəkildə tənqidlər etməyə başlaması, Rusiya ilə Çin arasında artıq ciddi ittifaqın formalaşmağa başladığını göstərməsi baxımından olduqca önəmlidir. Çünki burada xüsusilə Tayvan üzərindən Çini qarışdırmağa çalışan Amerika, Ukraynanı bir şəkildə işğal etməsini mümkün edərək Rusiyanın başını bəlaya salmışdı. Amerikanın başı isə hazırda İranla dərddədir".

**Ekspert vurğulayıb ki, Amerika Çinin Tayvan üzərindən məşğul edilməsi və zəiflədilməsini planlaşdırır:** "Bunun fərqinə varan Rusiya və Çin bir mənada birlikdə hərəkət edərək Vaşinqtonun bu aqressiv, imperialist və ekspansionist mövqeyinə qarşı çıxmağa çalışırlar. Çünki bunu bir yerdə dayandıra bilməsələr, bu, Rusiya və Çinin savaşa daxil ola biləcəyi həm regional, həm də qlobal yeni böhranları tətikləyə bilər. Məsələn, İran belə davam edərsə, daha böyük ölçüdə bir münaqişə ünsürünə çevriləcək. Bu, Rusiya ilə Çinin də daxil ola biləcəyi qlobal müharibəni özü ilə gətirə bilər.

Məhz bunun qarşısını almaq üçün Zaxarova indidən Amerikanı çox ciddi şəkildə xəbərdar edir. Əslində o, bununla Amerika, Rusiya və Çin arasında bir anlaşmanın mümkün ola biləcəyini dünya ictimaiyyətinə bəyan edir".

**Banuçiçək Kalbalıyeva**

# Azərbaycan şəhərsalmada Çin modelindən öyrənməlidir

## Professor: "Dünyada 10 min memardan yalnız 10-u peşəkardır"



**Son 10-20 ildə qlobal miqyasda iqlim dəyişikliyinin artması bir çox ölkələrdə sel, daşqın və quraqlığa səbəb olub. Düzgün qurulmayan və əhalinin sıx məskunlaşdığı ərazilərdə yaşayan insanlar təbii fəlakətin doğurduğu fəsadlardan əziyyət çəkirlər. Azərbaycanda ard-arda yağan yağışlar mövcud boşluqları üzə çıxardı. Artan problemlər 2024-cü ildə COP29-un Bakı şəhərində keçirilməsi üçün əsas yaratdı.**

Təbiət hadisələrinin gözlənilməz reaksiyalarına qarşı şəhərsalmanın düzgün istiqamətdə qurulması da vacib rol oynayır. Məhz buna görə prezidentin sərəncamına əsasən 2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edildi. Sərəncamın Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası ərəfəsində imzalanması xüsusi əhəmiyyətə malikdir. Dünyaca məşhur memar və ekoloqlardan ibarət 40 minə yaxın mütəxəssis WUF13-də bir araya gələrək memarlıq və şəhərsalma sahəsində qlobal miqyasda mövcud problemlərin həlli istiqamətində müzakirələr aparırlar.

**Mövzu ilə bağlı Türkdilli Ölkələrin Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının professoru, Honnover Akademiyasının akademiki, respublikamızda bir çox maraqlı layihələrin müəllifi, memar Cahid Həsənov "Şərq"ə bildirib ki, insan amilinə əsaslanan komfortlu yaşayış mühitinin formalaşdırılmasında memarlarla yanaşı, ekoloq və bioloqların da iştirakı vacibdir:** "Əvvəllər şəhərsalma prosesində memarlıq qurumları və şirkətlər fəaliyyət göstərirdi. Lakin onların gücü problemlərin həllinə çatmırdı. Məhz buna görə məsuliyyəti hökumət öz üzərinə götürüb. Azərbaycanda şəhərsalma sahəsində bir sıra problemlər var. Məsələn, sovet dövründə Bakı şəhərində təxminən 1 milyon insan yaşayırdı. Hazırda paytaxt əhalisinin sayı 3 milyonu keçib. SSRİ dövründə mövcud kanalizasiya sistemləri, kommunikasiya xətləri və yaşayış binaları insanların sayına nəzərən inşa edilmişdi. Bu gün isə əhali artımı ilə mövcud infrastrukturun imkanları arasında ciddi uyğunsuzluq var".

**Mütəxəssisin sözlərinə görə, Azərbaycan memarlıq və şəhərsalma üzrə xeyli təcrübəyə sahibdir:** "Afrika ölkələrindən gələn mütəxəssislər böyük şəhərlərdə yaranan problem və boşluqları Azərbaycanın memarlıq üslubundan bəhrələnməklə həll edə bilərlər. İşğaldan azad olunmuş torpaqlarımızda yaşıl kənd və qəsəbə, eləcə də "ağıllı şəhər" layihələri vasitəsilə dünya ölkələrinin üzləşdiyi problemlərin 3-5 il ərzində necə həll oluna biləcəyini göstərəcəyik. "Ağıllı kənd" və ya "ağıllı şəhər" dedikdə insanlar bəzən texnoloji imkanların çoxluq təşkil edəcəyi yaşayış massivlərindən bəhs etdiyimizi düşünür. Lakin bu belə deyil. Kəndə giriş-çıxış yollarının planlı şəkildə qurulması, nəqliyyat sıxlığı olan yollar və kəsişmələrdə işıqforların düzgün yerləşdirilməsi "ağıllı kənd" konsepsiyasının əsas tərkib hissələrindəndir".

**C.Həsənovun fikrincə, dünya ictimaiyyətinin üzləşdiyi əsas problemlərdən biri də oksigen qıtlığıdır:** "Əhali oksigenə olan tələbatını 300 metr aralıda yerləşən meşəyə gedərək ödəməməlidir. Məhz buna görə işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" layihəsi çərçivəsində yaşıl parklar və istirahət zonaları salınacaq. Gün keçdikcə artan əhali tıxacın intensivləşməsinə səbəb olur. Bütün bunlar yeni modelə keçid üçün əsas yaradır. Elə prospektlər var ki, oraya 50 işıqfor yerləşdirsən belə, tıxacın qarşısını almaq mümkün olmur. Lakin qoşqu və ötürücü yollar düzgün şəkildə planlaşdırıldıqda, həmin ərazidə 15 işıqforun quraşdırılması kifayət edəcək. Məsələn, Çinin 10 milyon əhalisi olan Hançjou şəhərində yollar vahid plan üzrə qurulduğu üçün tıxac yoxdur. Alternativ yolların çoxluğu və geniş prospektlər nəqliyyatın bir nöqtədə toplanmasının qarşısını alır".

**Professor qeyd edib ki, Azərbaycan Çin kimi sürətlə inkişaf edən ölkələrdən nümunə götürməlidir:** "Hər bir ölkədə 10.000 memar arasında bu sahəni bütün təfsilatı ilə dərindən bilən yalnız 10 memar yetişir. Dünya ölkələrinin əsas problemi peşəkar memar çatışmazlığıdır. Foruma Bakı şəhərinin baş planının hazırlanması istiqamətində xarici şirkətlər və memarlar dəvət olunub. Əminəm ki, mütəxəssislərin birgə fikir mübadiləsi nəticəsində şəhərsalmada yaranan problemlərin qarşısının alınması üçün vacib layihə və planlar üzərində işləniləcək".

**Aybəniz Səfərova**

# Bakı-Tbilisi qatarında klassik plaskart yerlər olmayacaq

## Kupe yerlərə bilet qiyməti alınma tarixi, həftəsonu və bayram günləri ilə bağlı 81-120 manat arasında dəyişə biləcək




**Bakı-Tbilisi qatarına bilet qiymətləri ilə bağlı müxtəlif versiyalar səslənir. Azərbaycan İnternet Forumunun Prezidenti, Multimedia Mərkəzinin direktoru Osman Gündüz "Şərq"ə ADY-nin indiyədək açıqladığı rəsmi məlumatı təqdim etdi:**

- Bakı-Tbilisi qatarındakı yerlərin çeşidi ilə bağlı ADY-nin indiyədək açıqladığı rəsmi məlumat budur ki, keçmiş vaqonlardakı klassik plaskart yerlər olmayacaq. 2-4 nəfərlik kupe (indiki adı "komfort") olacaq, qiyməti 81 manatdan başlayacaq. Yəni mövcud təcrübəyə əsaslansaq, düşünmək olar ki, biletin alınma tarixi, həftəsonu və bayram günləri ilə bağlı bu qiymətlər 81-120 manat arasında dəyişə biləcək. Əvvəlki 2 nəfərlik "SV" yerlər, indi 2 nəfərlik olmaqla "komfort +" adlanacaq. Hələlik ADY bu yerlərin qiymətlərini açıqlamayıb, qapalıdır. Yeni "lüks" vaqon da əlavə edilib, sanitar qovşaqla təmin edilən 2 nəfərlik bu lüks yerlərin qiyməti də açıqlanmayıb, bu da hələlik qapalıdır.

**Məlahət**

# Ermənistanda böyük qarşıdurmaların şahidi olacağıq

## "Elə bir gün yoxdur ki, Kremldən İrəvana ciddi xəbərdarlıq və siqnallar gəlməsin"



**Ermənistan siyasi arenası, hökumətlə müxalif qüvvələr arasında mübarizə meydanına çevrilib. Bir zamanlar Rusiya ilə qardaşlıq prinsipinə əsaslanan Paşinyan komandası, indi ondan uzaqlaşmağı ölkənin tərəqqisi üçün əsas meyar hesab edir. Lakin bunu reallaşdırmaq üçün Paşinyan hökumətinin qarşısında "mübarizə koalisiya"sı var.**

İyunun 7-də keçiriləcək parlament seçkilərində, Paşinyanın qarşısında sabiq Prezident Robert Köçəryan, rusiyalı milyarder Samvel Karapetyan və biznesmen Qaqik Sarukyan dayanır. Köçəryan bugünkü açıqlamasında ermənilərin yalnız Qarabağa qayıdış məsələsini gündəmdə saxladıqlarını və bundan başqa heç bir iddialarının olmadığını bildirib. Paşinyan isə onlara müraciətində, "Əgər Qarabağı istəyirdinizsə, onun uğrunda can verərdiniz" sözlərini dilə gətirib. Baş nazir, Sarukyan və Karapetyanla birgə hərəkət edən Köçəryanın casus olduğunu bildirərək, onlar arasındakı birliyi "üçbaşlı müharibə koalisiyası" adlandırıb. Paşinyan cinayətkar oliqarxiyanın Qarabağ ermənilərinə alınıb-satılan əmtəə kimi yanaşdıqlarını açıqlayıb.

**"Moskvanın Ermənistandakı əsas adamı Karapetyandır"**

**Mövzu ilə bağlı politoloq Sahil İsgəndərov "Şərq"ə bildirib ki, Moskva dairələri Paşinyanın Avropa İttifaqına inteqrasiya planlarına mane olmaq üçün seçkilərin nəticələrinə müdaxilə etməyə çalışırlar:** "Rusiyanın Ermənistanda təmsil olunan lideri isə "Güclü Ermənistan" partiyasının rəhbəri erməni əsilli rusiyalı oliqarx Samvel Karapetyandır. Karapetyan Ermənistanda həbs olunduqdan sonra Kreml onun qardaşı oğlu vasitəsilə parlament seçkilərində iştirak üçün "Güclü Ermənistan" partiyasının yaradılmasına göstəriş verib. Son vaxtlar Rusiyanın göstərdiyi səylər nəticəsində Ermənistanda revanşist qüvvələrin tərəfdarlarının sayı artıb. Bununla bağlı Rusiyanın sabiq Baş naziri Sergey Kiriyenkonun rəhbərliyi altında xüsusi qrup yaradılıb. Moskvanın proksi qüvvələrinin fəaliyyətinin artması, Paşinyan hökumətində narahatlıq yaradır".

**Politoloqun sözlərinə görə, bir neçə gündür ki, Ermənistanın hüquq-mühafizə orqanları müxalif blokun obyektlərində yoxlamalar aparırlar:** "Ermənistan cəmiyyətində revanşist düşüncələr həmişə ön planda olub. Karapetyan və Köçəryanla vahid müstəvidə çıxış edən "Çiçəklənən Ermənistan" Partiyasının sədri Qaqik Sarukyanın fəaliyyət mexanizmi də Ermənistan hökumətinin diqqət mərkəzindədir. O, Rusiyanın xarici xidmət orqanlarına bağlıdır. Paşinyan dünənki bəyanatında, Sarukyanın şirkətlər imperiyasının onurğa sütunu olan Ağrıdağ sement zavodunu onun əlindən alacağını açıqladı".

**S.İsgəndərov qeyd edib ki, Paşinyan rəqiblərinin təsir imkanlarını zəiflətmək üçün onların iqtisadi dayaqlarına zərbə vuracaq:** "Paşinyan və ona dəstək olan Avropa İttifaqı administrativ resurslardan istifadə etməklə proksi qüvvələrin uğur qazanmasına əngəl olacaqlar. 44 günlük müharibədən məğlub çıxan Paşinyan hökumətinə qarşı etimadsızlıq yaransa da, Azərbaycanın Ermənistana göstərdiyi jestlər Baş nazirin nüfuzunu gücləndirib. Paşinyanın Moskvaya son səfərində Prezident Vladimir Putin, ona birmənalı şəkildə rusiyayönümlü qüvvələrin seçkilərdə imkanlarının məhdudlaşdırılmasına laqeyd qalmayacaqlarını bildirdi".

**Politoloqun fikrincə, seçkilərə yaxınlaşdıqca, böyük qarşıdurmaların şahidi olacağıq:** "Elə bir gün yoxdur ki, Kremldən İrəvana ciddi xəbərdarlıq və siqnallar gəlməsin. Ötən gün Rusiyanın Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu, Ermənistanın beynəlxalq platformalarda mütəmadi olaraq Avropa İttifaqının mövqeyinə qoşulması ilə bağlı rəsmi İrəvana ciddi xəbərdarlıq etdi. Belə bir iddia da gündəmdədir ki, Ermənistan və Rusiya arasında pərdəarxası danışıqlar çərçivəsində revanşist qüvvələrin parlamentdə təmsilçiliyinin təmin olunması ilə bağlı əvvəlcədən müəyyən razılaşma əldə olunub".

**Aybəniz**



# Hantavirus geniş yayılsa, böyük sayda ölüm halları olacaq

## **Adil Qeybulla:** "Bu infeksiya total şəkildə bəşəriyyəti ağuşuna alsa, əlbəttə, səhiyyə sistemi bu qədər ağır xəstələri müalicə etməkdə aciz qalacaq"

**Hantavirusla bağlı qorxunc proqnozlar yayılır. Türkiyəli professor Oytun Erbaş bu virusun Covid-19-dan daha ağır nəticələrə səbəb ola biləcəyini, potensial qlobal pandemiyanın bəşəriyyət tarixinin gedişatını dəyişdirə biləcəyini iddia edir. 2018-ci ildən bəri hantavirusla bağlı tədqiqatların aparıldığını bildirən O.Erbaş, sprey əsaslı peyvəndlərin hazırlandığını bildirib: "Bu, bütün dünyaya təsir edə biləcək ciddi bir virusdur".**

O.Erbaş əlavə edib ki, Covidin ölümcüllüyünü hantavirusla müqayisə etmək belə mümkün deyil. Bütün fond bazarları dağılacaq. Hər kəs illərlə evindən çıxa bilməyəcək. Bir çox şey bitə bilər. Bir gündə rəqəmsal dünyaya keçə bilərik. 15 il ərzində 34 yoluxma halı və 11 ölüm halı var idi. Bu virus yayılır.

**Azərbaycan Dövlət Tibb Universitetinin professoru Adil Qeybulla "Şərq"ə açıqlamasında qeyd etdi ki, hantavirus canlı təbiətdə, heyvan mənşəli virusdur, yəni heyvanların orqanizmində təbii rezervuar kimi lövbər salmış virusdur, xüsusən də gəmiricilərdə bu tapılıb:**

- Gəmiricilərin də içində "maral siçanları" adlanan siçanlar var, boyunları uzun olduğuna görə belə adlandırılırlar. Şimali, Cənubi Amerikada daha çox yayılıb. Onların orqanizmində bu virus var. Ümumiyyətlə, canlı təbiətdə bu cür yoluxmalar olub, təsərrüfatlarda, fermerlər qarşılaşıb bu cür yoluxmalarla. Siçanlar mövcud olan yerlərdə onların dişləməsi nəticəsində ağız suyundan insanlara keçə bilir və ağır xəstəliklər törədir. Virusun bir neçə ştampı var ki, həqiqətən də çox ağır vəziyyət yaradır. Ölüm halları 70 faizədək yüksəlir. Burada kardio-pulmonal şok - ürək ağ ciyər ağırlaşması, hemorragik qızdırma, böyrək çatışmazlığı ilə gedən total, ölümcül ağırlaşmalar əmələ gəlir. Hazırda virusun kruiz gəmisindən yayıldığı ehtimal edilən ştampı - Andes ştampının insandan insana keçməsi müəyyən edilib. Düzdür, bu, çox yaxın kontaktla keçir. Amma çox ciddi narahatlıqdır. Həkimlərin, ÜST-nin həyəcan təbili bununla bağlıdır.

### Virus insan orqanizmində çox ağır vəziyyət yaradır

**A.Qeybulla bildirdi ki, virusun insandan insana transfer etməsi o deməkdir ki, insan orqanizmində yaşayıb mutasiya edərək, yeni varianta keçə bilər:**

- Virusun genomonunda ribonuklein turşusu olduğuna görə, əlbəttə, mutasiya imkanı var və virus nə vaxtsa insandan insana havadamcı yoluyla keçərsə, bəli, bu, qlobal pandemiyaya qədər gətirib çıxara bilər. Bu gün belə bir risk yoxdur, amma bunun qlobal pandemiyası bəşəriyyət üçün böyük təhlükə olar, çünki virus insan orqanizmində çox ağır vəziyyət yaradır. Bu infeksiya total şəkildə bəşəriyyəti ağuşuna alsa, əlbəttə, səhiyyə sistemi bu qədər ağır xəstələri müalicə etməkdə aciz qalacaq. Və böyük sayda ölüm halları ola bilər. Virus həqiqətən də canlı təbiətdə var və dəhşətlisi budur ki, insan orqanizminə keçməsi artan insan sayına bağlıdır. İnsanlar heyvanları sıradan çıxarır, bitkiləri sıradan çıxarır, təbiətə ən kobud şəkildə müdaxilələr edilir, nəticədə viruslar insan orqanizminə transfer etməyə başlayır. Hesab edirəm ki, həkimlərin, ÜST-nin narahatlığı əbəs deyil. Və bu narahatlıq daha çox gələcəyə, proqnoza hesablanıb, nəinki indiki duruma.

**Məlahət Rzayeva**

# Paşinyan rəqiblərini aradan götürsə, ölkədə xaos yarana bilər

## Karapetyan, Köçəryan və Sarukyanın seçki ərəfəsində birləşmə ehtimalı geniş şəkildə müzakirə olunur




**Ermənistanda parlament seçkilərinin vaxt çəmbəri daraldıqca, siyasi dairələrdə təzyiq mexanizmləri də güclənir. İyunun 7-də keçiriləcək parlament seçkilərində, Baş nazir Nikol Paşinyanın qarşısında sabiq Prezident Robert Köçəryan, rusiyalı milyarder Samvel Karapetyan və biznesmen Qaqik Sarukyan dayanır. Hakimiyyət uğrunda rinqə çıxan tərəflər bir-birini təhqir etməkdən çəkinmirlər.**

Ermənistan mətbuatında Rusiyada yaşayan 100 mindən çox Ermənistan vətəndaşının rüşvət müqabilində müxalifətə səs vermək üçün ölkəyə gətiriləcəyi barədə səsyazılar yayılıb. Paşinyan yayımlanan səs yazılarına münasibət bildirərək, müxalif blokun insanlara alınıb-satılan əmtəə kimi yanaşdığını açıqlayıb. Baş nazir, Karapetyan, Köçəryan və Sarukyanı "üçbaşlı müharibə koalisiyası" adlandırıb. Paşinyan onların quldur pəncələrini sındıracağını bəyan edib.

**Mövzu ilə bağlı Türkiyənin Ərciyəs Universitetinin professoru, ermənişünas-alim Qafar Çaxmaqlı "Şərq"ə bildirib ki, Rusiya Samvel Karapetyanı Ermənistana Paşinyanı devirmək üçün göndərib:** "Samvel, öz missiyasını yerinə yetirməyə çalışır. Çünki onun Rusiyada 3,5 milyard dəyərində sərvəti var. Şübhəsiz ki, o, korrupsiyaya bulaşmış və bir çox cinayətlərdə əli olan fiqurlardan biridir. "Taşır Samo" ləqəbli Karapetyan başqa bir ölkəyə sənəd alarkən Rusiyanın xüsusi xidmət orqanlarında çalışan adam kimi göstərilib. Bu faktdan sonra Ermənistan xalqı Karapetyana səs verməyəcək. Karapetyan, hazırda ev dustaqlığında olduğuna görə ayrı-ayrı yerlərdə təbliğat aparmaq imkanına da malik deyil".

**Professorun sözlərinə görə, Paşinyan əlinə düşən yeni faktlara əsasən Samvel barəsində yenidən cinayət işi açdıra bilər:** "Yəni Karapetyan Nikol üçün ciddi siyasi rəqib hesab olunmur. Baş nazir postuna namizəd olanlar arasında Robert Köçryan da Rusiyanın adamıdır. O, "Ermənistan" Partiyalar blokunun lideri olaraq Paşinyana qənim kəsilib. Lakin Köçəryanın cinayət xarakterli əməlləri hökumətin əlindədir. Paşinyan seçkiyə qədər onları həbs etdirə bilər. Ancaq bu bir az riskli məsələdir. Onları aradan götürmək ölkədə xaosun yaranmasına səbəb ola bilər. Paşinyana baş ağrısı verən şəxslərdən biri də "Çiçəklənən Ermənistan" Partiyasının sədri Qaqik Sarukyandır. O da xarici ölkədən göndərilən casusdur. Sarukyanın Rusiya və Belarusiyada böyük biznes şəbəkələri var".

**Q.Çaxmaqlı qeyd edib ki, Karapetyan, Köçəryan və Sarukyanın seçki ərəfəsində birləşmə ehtimalı geniş şəkildə müzakirə olunur:** "Onlar birləşib, bütün qüvvələrini səfərbər etməklə, Paşinyanı devirməyə çalışa bilərlər. Hələ ki, Paşinyan anket sorğularına əsasən irəlidə görünür. Ermənistan parlament sistemi proporsional seçki sistemi əsasında qurulub. Nikol 40 faiz səs toplamaqla, parlamentə düşən digər partiyalarla koalisiya şəklində birləşib, hökumət formalaşdıra bilər. Hazırda Paşinyan komandasını narahat edən əsas məsələ Rusiyada yaşayan ermənilərin revanşist qüvvələrin lehinə səs vermələri üçün İrəvana gətirilmələridir. Bunun qarşısını almaq üçün müəyyən tədbirlər planı hazırlanır. Ermənistanda belə bir fikir mövcuddur ki, gələnlərin bəziləri ölkədəki dəyişiklikləri gördükdən sonra seçimlərini Paşinyanın xeyrinə edəcəklər".

**Aybəniz Səfərova**

# Gürcüstan Aİ ilə münasibətlərini əvvəlki səviyyəyə qaytara biləcək

## Ermənistandakı parlament seçkilərindən sonra Cənubi Qafqazda Rusiyanın təsiri minimuma enəcək



**Avropa İttifaqı (Aİ) ədalətsizlik kompleksini dəf edərsə, Gürcüstanla münasibətləri asanlıqla bərpa olunacaq". Bunu Gürcüstan Baş naziri İrakli Kobaxidze deyib.**

Baş nazir vurğulayıb ki, münasibətlərdə əsas məsələ ədalət prinsipidir. Əgər münasibətlər ədalətli prinsiplərə əsaslanmırsa, bu münasibətlərin perspektivi yoxdur: "Gürcüstanla Avropa İttifaqı arasındakı əsas problem ədalətsizlik, gürcü xalqına və dövlətinə qarşı ədalətsiz münasibətdir. Burada da ikili standartlar, tamamilə ədalətsiz qiymətləndirmələr var. Gürcüstan Aİ üzvlüyünə namizəd ölkələr arasında mütləq liderdir - hər cəhətdən. Amma Avropa bürokratiyası bu fonda Gürcüstanda hökuməti dəyişdirmək qərarına gəlib. Bu qərarı da biz müqavimət göstərdikdən və (Rusiya ilə Ukrayna arasında) müharibəyə qoşulmadıqdan sonra veriblər. Bu qərar həyata keçirilməlidir, onlar üçün ədalətsizlik bu qərarı həyata keçirmək üçün yeganə vasitədir".

**İrakli Kobaxidze Aİ-ni 2024-cü ildə Gürcüstanda keçirilən bələdiyyə seçkilərinə birbaşa müdaxilədə ittiham edib:** "Ədalətsizliyin olduğu yerdə sağlam münasibətlər ola bilməz. Buna uyğun olaraq, indi Avropa bürokratiyası öz ədalətsizliyinin girovuna çevrilib, bu dairədən çıxa bilmirlər. Bu ədalətsizlik dairəsini özləri yaradıblar. Onlar öz ədalətsizlikləri əsasında yaratdıqları kompleksləri dəf etməlidirlər. Əgər Avropa bürokratiyası öz komplekslərini dəf edərsə, Gürcüstanla Avropa İttifaqı arasındakı münasibətlər çox asanlıqla bərpa edilə bilər".

**Politoloq Abutalıb Səmədov "Şərq"ə açıqlamasında Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Avropa İttifaqı ilə bağlı dediklərində müəyyən qədər həqiqət payı olduğunu deyib. Onun sözlərinə görə, Avropa İttifaqının Azərbaycan və Türkiyəyə münasibətdə zaman-zaman qərəzli və ikili standartlara əsaslanan siyasət yeritdiyini aydın şəkildə hiss etmişik. Lakin Gürcüstanla Avropa İttifaqı arasındakı münasibətlərin pozulmasının səbəbi təkcə Aİ-nin qərəzli olması deyil:** "Gürcüstanla Avropa İttifaqı arasında münasibətlərin gərginləşməsinin əsas səbəbi Brüsselin mövqeyindən daha çox, son illərdə Tbilisinin xarici siyasətdə getdikcə Rusiyaya yaxınlaşması ilə bağlıdır. Gürcüstanın son illər açıq şəkildə Rusiyameyilli siyasət yeritməsi sirr deyil. Bu təkcə özünü Gürcüstanın Rusiya-Ukrayna müharibəsində tətbiq edilən sanksiyalara qoşulmamasında göstərmir. Qərblə münasibətlərdə daha sərt və məsafəli xətt seçməsi Aİ ilə münasibətlərdə etimad böhranını dərinləşdirib. Gürcüstan hakimiyyəti zamanla anladı ki, Avropa İttifaqının və digər qərb ölkələrinin Cənubi Osetiya və Abxaziya məsələsində Tbilisinin ərazi bütövlüyünü bərpa etmək istəyi və yaxud, real gücü, siyasi iradəsi yoxdur. Bu da Gürcüstanı qane etmədiyindən rəsmi Tbilisi son illərdə Rusiyaya yaxınlaşma siyasətinə üstünlük verdi və hesab etdi ki, Moskva ilə münasibətlərin normallaşdırılması gələcəkdə bu problemlərin həllinə müəyyən imkan yarada bilər. Lakin sonrakı proseslər göstərdi ki, Gürcüstanın bu gözləntiləri özünü doğrultmadı. Rusiya ilə münasibətlərin tam şəkildə bərpası mümkün olmadı, əksinə, Moskvanın Cənubi Osetiya və Abxaziya ilə inteqrasiyanı daha da dərinləşdirməsi Gürcüstanda bu məsələdə ümidlərin azalmasına səbəb oldu. Hətta Rusiya rəsmiləri açıq şəkildə bəyan edirdilər ki, Gürcüstanla Rusiyanın diplomatik münasibətlərini bərpa etməsinə mane olan əsas məsələ Cənubi Osetiya və Abxaziyanın Gürcüstana qaytarılması tələbidir. Görünür, Gürcüstan artıq Rusiyanın həmin əraziləri qaytarmaq fikrində olmadığını anlayıb".

**Politoloq qeyd edib ki, mayın 9-da Rusiya ilə Cənubi Osetiya arasında inteqrasiyanın daha da dərinləşdirilməsi barədə imzalanan son sənəd və Osetiya rəhbərliyinin bu sənədi "osetin xalqının birləşməsinin başlanğıcı" kimi dəyərləndirməsi Gürcüstan üçün ciddi siqnaldır:** "Cənubi Osetiya açıq-aşkar Rusiyaya birləşmək siyasəti yeridir. Arxasınca, Abxaziyanın da bu sənədi imzalaması istisna deyil. Bu reallıqdan sonra Tbilisi artıq anlayır ki, Moskvanın həmin əraziləri geri qaytarmaq niyyəti yoxdur və bu reallıq Gürcüstanı yenidən Avropa ilə münasibətləri normallaşdırmağa sövq edə bilər. Hesab edirəm ki, Gürcüstanın bu dönüşü Aİ tərəfindən də müsbət qarşılanacaq və dəstəklənəcək. Onu da deyim ki, Gürcüstanın yenidən Avropa istiqamətinə yaxınlaşması həm ölkənin öz maraqları, həm də bütövlükdə Cənubi Qafqazın gələcək təhlükəsizlik arxitekturası baxımından vacibdir. Regionda Rusiyanın təsirinin zəifləməsi üçün Azərbaycan, Ermənistan və Gürcüstanın daha koordinasiyalı siyasət yürütməsi mühüm əhəmiyyət daşıyır. Azərbaycanla Ermənistan artıq bu istiqamətdə real addımlar atır. Ümid edək ki, Gürcüstan da qısa müddət ərzində Aİ ilə münasibətlərini əvvəlki səviyyəyə qaytara biləcək və Ermənistandakı parlament seçkilərindən sonra Cənubi Qafqazda Rusiyanın təsiri minimuma enəcək".

**Şəymən Bayramova**

**İctimai nəqliyyatda NFC ödəmələrində problem yarandığı, vətəndaşların gediş kartından əlavə pul çıxıldığına dair narazılıqlarla yanaşı parkinq ödəmələrinin vaxtında sistemə oturmadığı, buna görə isə cərimə tətbiq edildiyinə dair**




# Bəzi qurumlar texnologiyanın arxasında "gizlənir"

## İstehlakçıdan pul qoparmaq üçün vasitələr gücləndirilir

**şikayətlər də var. Jurnalist bloger Bahadur Seyidov parkinqdə üzləşdiyi problemlərlə bağlı sosial şəbəkədə paylaşım edib:**

- 19 may 2026-cı il tarixində, təxminən saat 13:00 radələrində Əhməd Rəcəbli küçəsində avtomobilimi parklanma yerində saxladım. Düz parklanma lövhəsinin yanında idim. Lövhədə göstərilən 20 150 nömrəli məntəqə üzrə "AzParking" tətbiqinə daxil oldum, parklanmanı başlatdım. Ödəniş "Apple Pay" vasitəsilə olduğu üçün telefon "Face ID" təsdiqi istədi. Mən də "iPhone"nin yan düyməsinə iki dəfə basaraq təsdiqlədim və tətbiqdə parklanma müddəti başladı. Amma təxminən saat 15:00 radələrində mənə cərimə gəldi. "AzParking" tətbiqini açıram, baxıram ki, nə aktiv parklanma görünür, nə də tarixçədə bu əməliyyat var. Yəni vətəndaş rəsmi tətbiqə girir, rəsmi lövhədə göstərilən məntəqə üzrə parklanmanı başladır, ödənişi təsdiqləyir, sonra sistem bunu "görmür" və üstünə cərimə yazılır. 141-ə zəng edirəm. Cavab isə təxminən belədir: "Bizim sistemdə görünmürsə, cərimələri ödəməlisiniz. Hara istəyirsiniz şikayət edin." Bu nə yanaşmadır? Əgər bu, rəsmi dövlət tətbiqidirsə, vətəndaş bu tətbiqə necə güvənsin? Əgər tətbiqdə texniki problem varsa, niyə bunun bədəlini vətəndaş ödəməlidir? Mən ödənişi təsdiqləmişəmsə, parklanma başlamış kimi görünmüşsə, sonra bunun tətbiqin tarixçəsindən yoxa çıxması kimin məsuliyyətidir? AYNA və "AzParking" bu məsələyə aydın cavab verməlidir: Mənim həmin saatda tətbiqə daxil olub-olmadığım niyə araşdırılmır? "Apple Pay" təsdiqi və parklanma əməliyyatı niyə sistemdə görünmür? Texniki nasazlıq varsa, niyə vətəndaş cərimə ilə cəzalandırılır? 141 xidməti niyə vətəndaşa kömək etmək əvəzinə "sistemdə yoxdursa, ödə" cavabı verir?

Bu vəziyyətdə məsələ necə həll olunmalıdır?

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Şərq"ə açıqlamasında qeyd etdi ki, ümumiyyətlə, dünyada və ölkəmizdə yeni texnologiyalar yarandıqca, onlayn ödəmə üsulları genişləndikcə istehlakçıların hüquqlarının pozulması da artır:**

- Əvvəllər problemləri həll etmək olurdu, indi isə mümkün deyil. Mən ABŞ-də səfərdə olarkən metrodan keçərkən 20 dollarımı aparat aldı, polisə müraciət etdikdə, dedilər, 20 günə ancaq həll etmək olacaq. Ötən həftə bizə daxil olan şikayətlər arasında gediş kartından əlavə pul çıxılmaları ilə bağlı müraciətlər daha çox olub. Texniki nasazlıqlar aradan qaldırılmır, problemin həllində məsuliyyət daşıyan qurumlar isə texnologiyanın arxasında "gizlənir", "sistemi" "günahlandırırlar", halbuki bu sistemi tətbiq edən özləridir. Belə hallar hər yerdə var, o cümlədən satış şəbəkələrində, marketlərdə insanlara almadıqları mala görə ödəniş tutulur, kassa çekinə vurulur. Dünyada istehlakçı hüquqları ildən-ilə zəifləyir. İstehlakçıdan pul qoparmaq üçün vasitələr gücləndirilir. Məsləhət görürəm ki, vətəndaşlar bu cür hallarla qarşılaşdıqda Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə müraciət etsinlər.

**Məlahət**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Qarabağ modeli dünyaya örnək kimi təqdim olunur

## Azər Badamov: "WUF13 Forumu investisiya axınını artıracaq və yeni tərəfdaşlıqlar yaradacaq"



**Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) Azərbaycanın beynəlxalq nüfuzunun, iqtisadi potensialının və müasir inkişaf strategiyasının təqdim olunduğu mühüm qlobal platformaya çevrildi. 182 ölkədən 45 mindən artıq iştirakçının qatıldığı forum bir daha göstərdi ki, Azərbaycan artıq yalnız regionun deyil, dünyanın diqqət mərkəzində olan beynəlxalq tədbirlər məkanlarından biridir. Prezident İlham Əliyev forumun açılış mərasimində çıxışı zamanı vurğuladı ki, şəhərsalma məsələsi Azərbaycanda təkcə infrastrukturun qurulması ilə məhdudlaşmır; bu proses iqtisadi inkişaf, ekoloji təhlükəsizlik, sosial rifah və strateji dövlət idarəçiliyinin mühüm tərkib hissəsi kimi həyata keçirilir.**

WUF13 həm də Azərbaycanın regionların sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirdiyi siyasətin beynəlxalq təqdimatı baxımından xüsusi əhəmiyyət daşıdı. Şamaxı, Naxçıvan, Gəncə, Qəbələ, Şəki, Lahıc və Şuşa kimi şəhərlərin forum çərçivəsində ön plana çıxarılması göstərdi ki, ölkədə şəhərsalma siyasəti yalnız paytaxtla məhdudlaşmır. Tarixi irsin qorunması, qədim şəhərlərin müasir standartlara uyğun yenidən qurulması və regionların dayanıqlı inkişafının təmin edilməsi Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biridir.

Forum çərçivəsində işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri də diqqət mərkəzində oldu. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən "ağıllı şəhər", "ağıllı kənd" və yaşıl enerji layihələri regionun gələcək iqtisadi inkişaf modelinin formalaşdırılmasına xidmət edir. İnfrastruktur layihələrinin sürətlə icrası, beynəlxalq hava limanlarının, yolların, tunellərin və enerji xətlərinin inşası həmin bölgələrin Azərbaycanın əsas iqtisadi və logistika mərkəzlərindən birinə çevrilməsi üçün mühüm zəmin yaradır.

WUF13 vasitəsilə Azərbaycan yalnız uğurlu ev sahibi kimi deyil, həm də qlobal urbanizasiya və dayanıqlı inkişaf siyasətində fəal iştirak edən ölkə kimi çıxış edir. Forum ölkənin investisiya imkanlarının, qeyri-neft sektorunun, yaşıl texnologiyalar və rəqəmsal idarəetmə sahəsində həyata keçirilən layihələrinin beynəlxalq ictimaiyyətə təqdimatı baxımından mühüm platformadır. Bu baxımdan WUF13 Azərbaycanın həm siyasi nüfuzunun güclənməsinə, həm də regionların sosial-iqtisadi inkişaf strategiyasının beynəlxalq səviyyədə tanınmasına xidmət edən əhəmiyyətli tədbir kimi qiymətləndirilir.

**Milli Məclisin deputatı Azər Badamov "Şərq"ə bildirib ki, Bakıda keçirilən BMT-nin 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsi, iqtisadi potensialının təqdim olunması və postmünaqişə dövründə həyata keçirilən quruculuq modelinin dünyaya tanıdılması baxımından strateji əhəmiyyət daşıyır:** "Dünyanın müxtəlif ölkələrindən on minlərlə nümayəndənin iştirak etdiyi bu forum yalnız urbanizasiya və şəhərsalma məsələlərinin müzakirə platforması deyil, eyni zamanda Azərbaycanın müasir inkişaf konsepsiyasının nümayiş etdirildiyi qlobal tədbir kimi diqqət çəkir.

Forum həm Bakının müasir infrastruktur imkanlarının, həm də Azərbaycanda tətbiq edilən yeni şəhərsalma modellərinin beynəlxalq ictimaiyyətə təqdimatı baxımından xüsusi əhəmiyyət daşıyır.

Forum çərçivəsində dayanıqlı şəhərsalma, "ağıllı şəhər" konsepsiyası, yaşıl enerji, nəqliyyat infrastrukturu və urbanizasiya ilə bağlı müasir yanaşmalar geniş şəkildə müzakirə edilir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma və "ağıllı şəhər" layihələrinin beynəlxalq platformada təqdim olunması Azərbaycanın postmünaqişə dövründə ortaya qoyduğu inkişaf modelinə marağı artırır. Bu baxımdan WUF13 yalnız regional deyil, qlobal şəhərsalma gündəliyinin mühüm hissəsinə çevrilib".

**Deputat qeyd edib ki, WUF-13 çərçivəsində Azərbaycan şəhərsalma, urbanizasiya və bərpa-quruculuq sahəsində qazandığı təcrübəni beynəlxalq ictimaiyyətlə bölüşəcək, eyni zamanda dünya təcrübəsində tətbiq olunan qabaqcıl həllərlə yaxından tanış olmaq imkanı əldə edəcək:** "Forum yeni şəhərlərin salınması, mövcud şəhərlərin müasir standartlara uyğun yenidən qurulması və yaşayış məskənlərinin daha dayanıqlı hala gətirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Forum çərçivəsində əldə olunacaq bilik və təcrübə mübadiləsi ölkəmizdə dayanıqlı şəhər inkişafına əlavə töhfə verəcək. WUF-13 çərçivəsində ölkəmizə gəlmiş yüksək səviyyəli qonaqlar, investorlar və müxtəlif beynəlxalq təşkilatların nümayəndələri ilə keçiriləcək görüşlər yeni iqtisadi tərəfdaşlıqların qurulmasına, investisiya axınının artmasına və uzunmüddətli ticari-iqtisadi əlaqələrin genişlənməsinə şərait yaradacaq.

Bütün bunlar göstərir ki, WUF13 Azərbaycanın beynəlxalq mövqeyinin daha da güclənməsi, dayanıqlı inkişaf sahəsində nüfuzunun artması və Qarabağda həyata keçirilən quruculuq modelinin dünya miqyasında tanıdılması baxımından mühüm strateji platformadır. Azərbaycan bu forum vasitəsilə dünyaya mesaj verir ki, postmünaqişə dövründə aparılan bərpa işləri yalnız dağıntıların aradan qaldırılması deyil, həm də gələcəyin innovativ, dayanıqlı və ağıllı şəhərlərinin qurulması prosesidir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda formalaşdırılan yeni şəhərsalma modeli artıq təkcə Azərbaycanın daxili inkişaf strategiyasının deyil, beynəlxalq urbanizasiya siyasətinin də diqqət mərkəzində olan nümunələrdən birinə çevrilməkdədir".

**Şəymən Bayramova**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# İTV rəhbərliyi uğrunda yarış

## Media nümayəndələri vəziyyəti dəyərləndirdi

**İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru vəzifəsinə namizədlərin sənəd qəbulu başa çatıb və artıq seçim prosesi növbəti mərhələyə keçir. Ümumilikdə 11 namizədin qatıldığı proses media ictimaiyyətində də maraqla izlənilir.**

**Xatırladaq ki, İTV-nin baş direktoru vəzifəsi üçün 11 nəfər iddiaçı sənədlərini Audiovizual Şuraya təqdim edib. Bunlar aşağıdakılardır:**

1. Əhmədov Ayxan Əbdül Kərim oğlu
2. Əzimov Tural Qürbət oğlu
3. Məmmədzadə Tural Sahib oğlu
4. Qulamov Arzu Aydın oğlu
5. Baxşıyeva İlhamə Rafiq qızı
6. Məmmədov Fikrət Alı oğlu
7. Qasımov Balakişi Ələkbər oğlu
8. Şahsuvarov Taleh Novruz oğlu
9. Nağıyev Anar Əlişah oğlu
10. Əliyeva İlahə Xudu qızı
11. Cəfərov Əli Sucəddin oğlu

Qeyd edək ki, baş direktor 4 il müddətinə seçilir. Hazırda telekanalın baş direktoru Balakişi Qasımovdur.

İctimai Televiziyanın gələcək fəaliyyət istiqaməti, idarəetmə modeli və məzmun siyasəti baxımından bu seçki mühüm əhəmiyyət daşıyır. Bəs media nümayəndələri və ekspertlər İTV-nin yeni rəhbərində hansı keyfiyyətləri görmək istəyirlər? Yeni baş direktor kanalda hansı dəyişiklikləri etməlidir? Sorğumuzda bu suallara cavab axtardıq.

**"Şərq" sorğunu təqdim edir:**

**Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı qeyd etdi ki, bir-iki addan başqa digər namizədləri tanımır:** "Tanıdıqlarım və gördüklərim arasında elə Balakişi Qasımovdan daha yaxşısı yoxdur".

**Tanınmış teletənqidçi, BDU-nun "Multimedia və elektron kommunikasiya" kafedrasının rəhbəri Qulu Məhərrəmli bildirdi ki, baş direktorun seçilməsi qanunla müəyyən olunmuş prosedurdur:** "11 nəfərin sənəd verməsi də əlbəttə ki, müsbət haldır. Bu, kifayət qədər rəqabətli mühitin olduğunu göstərir. Deməli, istəyənlər, maraq göstərənlər var və bu da maraqlı məqamdır. Mənə elə gəlir ki, "İctimai Televiziyanın direktoru necə olmalıdır" sualını biz müəyyənləşdirmirik. "İctimai yayım haqqında" qanunda baş direktora verilən tələblər hamısı aydın şəkildə göstərilib, hamısının funksiyası var. Yayım Şurası necə olmalıdır, Yayım Şurasının üzvlərinə hansı tələblər verilir, baş direktora hansı tələblər qoyulur - bunların hamısı orada əks olunub. Təbii ki, birinci növbədə ictimai yayımın fəlsəfəsi, məqsədi və prinsipləri əsasdır. İctimai yayım cəmiyyətin güzgüsü olmaq etibarilə bütün cəmiyyəti, bütün ölkə ərazisini əhatə edir və sözün həqiqi mənasında cəmiyyət üçün ictimai tribunaya və parlaq bir platformaya çevrilməlidir. Ona görə də mən namizədlərə uğurlar diləyir və arzulayıram ki, kim seçiləcəksə, ictimai yayım prinsiplərinə əməl etsin, qanunda irəli sürülən tələbləri gözləsin və cəmiyyətə yaxşı, keyfiyyətli verilişlər təqdim olunsun".





**Mətbuat Şurasının sədri, AYB-nin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid söylədi ki, İTV-nin hazırkı rəhbərliyinin fəaliyyətini yüksək qiymətləndirir:** "Mövcud imkanlar daxilində çox maraqlı verilişlərə imza atılıb. Namizədlərin, o cümlədən Taleh Şahsuvarlının düşüncələri, proqramı, rəhbər olmaq əzmi başadüşüləndir. Amma mən indiki rəhbərliyin fəaliyyətini davam etdirməsini daha məqbul sayıram".

**"Azxeber.com"un redaktoru, Mətbuat Şurasının (MŞ) İdarə Heyətinin üzvü Hacıbəy Heydərli dedi ki, İctimai Televiziya bütün cəmiyyətin maraqlarını özündə əks etdirən, cəlb edən və cəmiyyətin bütün təbəqələrinə xidmət edən bir televiziya olduğuna görə, seçkilər hər zaman cəmiyyətin diqqət mərkəzində olur:** "Düşünürəm ki, İctimai Televiziya bu illər ərzində öz missiyasının öhdəsindən gəlməyi bacarıb. İndiyə qədərki fəaliyyəti də onu göstərir ki, İctimai Televiziya həqiqətən də cəmiyyətin müxtəlif təbəqələrinə uyğun fəaliyyət göstərir. Qaldı ki yeni seçkilərə, düşünürəm ki, 11 namizədin hər biri öz sahəsində uğur qazanmış, tanınan şəxslərdir. Bildiyiniz kimi, İctimai Televiziyanın yeni sədrini Yayım Şurasının üzvləri seçirlər. Yayım Şurası üzvlərinin də bu seçimlərdə obyektivliyinə heç bir şübhə ola bilməz. Yeni seçilən sədr də əslində təkcə öz ideyaları və fikirləri ilə deyil, eyni zamanda rəqiblərinin platformalarına da yaxından nəzər yetirməlidir. Onların da təkliflərindən yararlanmaqla ictimai televiziyanı daha yaxşı səviyyədə görə bilərik. Amma ümumilikdə baxanda hesab edirəm ki, Balakişi Qasımov bu illər ərzində İctimai Televiziyada bir çox yeniliklərə imza atmış sədr olub. Eyni zamanda bir çox beynəlxalq layihələrin ölkəmizə gətirilməsi, uğurlu layihələrin həyata keçirilməsi onun sədr kimi öz işinin öhdəsindən gəldiyinin əsas göstəricilərindən biridir. Bu baxımdan yeni seçilən sədr tərəfindən də bu kimi layihələr davam etdirilməlidir".

**Yazıçı, publisist və şair Aqşin Yenisey vurğuladı ki, namizədlərin əksəriyyətini tanımır, ümumiyyətlə, kimlərin namizəd olduğu barədə də çox məlumatı yoxdur:** "Ümumiyyətlə, İctimai Televiziyanın əsas funksiyalarından biri cəmiyyəti narahat edən sosial və ictimai problemlərin müzakirəsini təşkil etməkdir. Təəssüf ki, bu gün bizim televiziyaların demək olar ki, heç birində real müzakirə mühiti yoxdur. Burada qlobal siyasi proseslərdən yox, ölkənin daxilində insanları düşündürən məsələlərdən söhbət gedir. Hazırda ölkənin daxili problemləri ilə sistemli şəkildə məşğul olan televiziya kanalı demək olar ki, yoxdur. Halbuki məncə, bu missiyanı ilk növbədə İctimai Televiziya yerinə yetirməlidir. Mən istərdim ki, Azərbaycan cəmiyyətində düşünən, intellektual potensialı olan, sosial şəbəkələrdə və şəxsi platformalarında fikir bildirən insanlar televiziya məkanına gətirilsin. Bu gün ən maraqlı və canlı müzakirələr məhz həmin insanların paylaşımlarının şərh bölmələrində gedir. Amma həmin müzakirələrin geniş auditoriyaya çatması, insanların oradan fikir və məlumat əldə etməsi çətin olur. Bir sosial media profili nə qədər böyük auditoriyanı əhatə edə bilər? Halbuki bu müzakirələr İctimai Televiziyada təşkil olunsa və davamlı xarakter daşısa, Azərbaycan insanında da intellektual müzakirə mədəniyyəti formalaşa bilər. Məncə, İctimai kanalın əsas missiyası məhz bu olmalıdır. Amma hazırda görürük ki, televiziyada təşkil olunan müzakirələr belə çox vaxt sosial şəbəkələrdə artıq müzakirə edilib bitəndən sonra efirə çıxır. Yəni əvvəlcə mövzu sosial mediada gündəmə gəlir, insanlar onu müzakirə edir, proses yekunlaşır, yalnız bundan sonra televiziya həmin mövzu və eyni şəxslərlə efir təşkil edir. Halbuki cəmiyyət artıq yeni düşüncəli, həyata və proseslərə fərqli baxan insanların fikirlərini eşitmək istəyir".

**Yazıçı əlavə etdi ki, Azərbaycan efirləri isə 20-30 ildir hamının tanıdığı, nə danışacağını əvvəlcədən bildiyi insanların məkanına çevrilib:** "Buna görə də intellektual, fəlsəfi, sosial və ictimai mövzulara maraq göstərən tamaşaçının televiziya ilə əlaqəsi demək olar ki, qalmayıb. Bakıda və ya regionlarda sorğu keçirilsə, yəqin ki, belə bir nəticə ortaya çıxar: insanların evində bir neçə televizor olsa da, onları açan yoxdur. Mən özüm də bunun şahidiyəm. Çox adam etiraf edir ki, artıq televiziyaya demək olar baxmır. Niyə baxmırlar? Çünki televiziyanın səviyyəsi həmin insanların gözləntisindən və düşüncə səviyyəsindən aşağıdır. Ona görə də İctimai Televiziyanın əsas öhdəliklərindən biri cəmiyyətin ümumi səviyyəsindən həmişə bir pillə yuxarıda dayanmaq olmalıdır ki, insanlarda ona qarşı maraq və ehtiyac yaransın. Əgər bunu edə bilməyəcəksə, onun İctimai Televiziya adlanmasının da xüsusi mənası qalmır. O zaman digər kanallardan fərqlənməyən sıradan bir televiziya olacaq. Balakişi müəllimin dövründə İctimai Televiziya bəzi layihələri ilə həqiqətən ictimai status qazanmağa çalışdı və müəyyən qədər buna nail də oldu. Əgər bunu bir məktəb kimi qəbul etsək, deməli, Balakişi müəllim orada müəyyən bir ənənə və yanaşma formalaşdırdı. Yeni rəhbərlik isə bunun üzərində inkişaf strategiyası qurmalıdır. Bu baxımdan düşünürəm ki, yeni rəhbərlik bu məsələlərə ciddi yanaşmalıdır. Çünki artıq prinsiplər dəyişib. Biz sovet və ya müstəmləkə ölkəsi deyilik. Ona görə də məqsədimiz sadəcə qorumaq yox, qoruduqlarımızı inkişaf etdirmək olmalıdır. Əgər bunu bacaran bir rəhbərlik formalaşsa, əlbəttə, biz də əlimizdən gələn dəstəyi verməyə hazırıq. Əks halda, bu gün vəziyyət necədirsə, bundan sonra da eyni şəkildə davam edəcək. Mənim televiziya ilə bağlı əsas gözləntilərim bunlardır".

**Nihat Müzəffər**



## Xəstəlik vərəqələrini yeni qayda ilə hesablamaq mümkün olmur

### Bəzi dəyişikliklərə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi hələ də hazır deyil

**May ayından etibarən xəstəlik vərəqələrinin (bolniçnı) sənədləşməsi ilə bağlı yeni qaydalar qüvvədədir. Amma sistem hazır olmadığından çoxlu suallar yaranır. Xəstəlik vərəqələrini yeni qayda ilə hesablamaq mümkün olmur. Staja görə ödəniş artıq 100 faizdir, amma sistemdə bunun hesablanması hələ də köhnə qayda ilə aparılır.**

**Bu barədə "Şərq"ə danışan iqtisadçı Rauf Qarayev bildirdi ki,** dövlət qurumları vətəndaşların müraciət etməsi üçün "Qaynar Xətt"lər yaratsa da, bu sistem rəsmi orqanların heç də hamısında aktif fəaliyyət göstərmir.

Bəzən vətəndaşlar dəqiqələrlə xətdə gözləyir, uzun-uzadı gözləntilər sonunda nəticəsiz qalır. Əsasən də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Qaynar xətt"i olan "142" xidməti son zamanlar bərbad vəziyyətdə işləyir. Baxmayaraq qeyd olunur ki, maksimum gözlənilmə müddəti 1-2 dəqiqədir. Amma reallıq onu göstərir ki, minimum 3-4 dəqiqə gözləməli olursan. Buna baxmayaraq e-sosial.az sosial.gov.az saytlarında onlayn çat mövcud olsa da, orada operator yox, bot hazır cavablar verir. Operatorla orada əlaqə saxlamaq mümkün deyil. Bildiyimiz kimi may ayının 1-dən etibarən yeni qaydalar qüvvədədir. Xəstəlik vərəqələri ilə bağlı sənədləşmələrlə bağlı. Amma sistem hazır olmadığından çoxlu suallar yaranır. Xəstəlik vərəqələrini hesablamaq mümkün olmur. Staja görə ödəniş artıq 100 faizdir, amma sistemdə bunun hesablanması köhnə qayda ilədir. Mən onlara təklif etdim və qeyd etdim ki, vergi sistemində Çağrı Mərkəzinə zəng etdikdən sonra əgər 1 dəqiqə cavab verilmirsə, gün ərzində operator sizlə əlaqə saxlayır. Vergi işi baxımdan bu, yaxşı addımdır, amma "142" Qaynar Xəttinə nəzarət edən qurumda belə bir praktika yoxdur. Bütün yuxarıda sadaladığıma əsasən bunu qeyd etmək olar ki, rəsmi qurumda ciddi problemlər var. Digər məsələ e-sosial tətbiqinin ləğvi və mygov.az keçidlə bağlıdır. Artıq 2 aydır ki, ƏM iki maddəsi ilə bağlı suala sistemdən cavab yoxdur. Hətta bununla Əmək Müfəttişliyinin rəhbərinə də bildirilib, o isə "gözləyin, cavab veriləcək" qeyd edir. Görünür, bəzi dəyişikliklərə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi hələ də hazır deyil.

**Məlahət Rzayeva**

# Şəhərlər artıq avtomobillər üçün yox, insanlar üçün planlanır

## Şəhərsalma artıq tikinti deyil, insan və gələcək strategiyasıdır



**Son iyirmi ildə Bakı yalnız memarlıq baxımından deyil, düşüncə və həyat tərzi baxımından da ciddi dəyişikliklər yaşayan şəhərlərdən birinə çevrilib. Bu dəyişikliklərə kənardan baxan insan ilk növbədə yeni binaları, parkları, yolları və müasir infrastrukturu görür.**

**Siyasi şərhçi Azər Niftiyev "Şərq"ə bildirib ki, məsələnin daha dərin qatında şəhərə münasibətin dəyişməsi dayanır. Onun fikrincə, Prezidentin Ümumdünya Şəhərsalma Forumundakı çıxışında vurğulanan məqamlar da məhz bu gerçəkliyi ortaya qoyur:** "Şəhərsalma artıq yalnız tikinti prosesi deyil, insan, ekologiya və gələcək arasında qurulan strateji münasibətdir.

Bu xüsusda bir zamanlar neft sənayesinin ağır mirası ilə yadda qalan Qara şəhərin bu gün Ağ şəhər kimi regionun ən müasir urbanizasiya nümunələrindən birinə çevrilməsi qeyd oluna bilər. Vaxtilə çirklənmə, sənaye tullantıları və boz mənzərə ilə assosiasiya olunan həmin ərazi indi şəhər daxilində yeni bir şəhər təsiri bağışlayır.

Bu transformasiya təkcə memarlıq uğuru deyil, həm də siyasi iradənin, iqtisadi strategiyanın və şəhər estetikası anlayışının birgə vəhdətidir. Ən vacibi isə odur ki, Bakı burada keçmişini dağıtmadan onu yenidən formalaşdırmağa nail olub.

Müasir şəhərsalmanın digər mühüm istiqaməti insanların yaşayış keyfiyyətinə verilən diqqətdir. Son illərdə paytaxtda yaradılan yüzlərlə park, abadlaşdırılmış ictimai məkanlar və yaşıllıq zonaları şəhərin nəfəsini dəyişib.

Şəhər artıq yalnız avtomobillər üçün deyil, insanlar üçün planlaşdırılır. Bu yanaşma xüsusilə ictimai nəqliyyat, metro infrastrukturu, elektrik avtobusları və mikromobillik həllərində özünü göstərir.

Dünyanın bir çox ölkəsində ekoloji şəhər konsepsiyası hələ müzakirə mövzusu olduğu halda Bakıda bu modelin elementləri artıq real həyata tətbiq edilir".

**A.Niftiyev qeyd edib ki, Prezidentin çıxışında diqqətçəkən məqamlardan biri də şəhərsalma tarixində vaxtilə verilmiş yanlış qərarların olması ilə bağlıdır:** "Urbanizasiya yalnız beton və şüşə demək deyil. Burada əsas məsələ insanın özünü şəhərdə necə hiss etməsidir. Rahatlıq, təhlükəsizlik, estetik zövq və ekoloji balans bir-birini tamamlamadıqda şəhər inkişaf etmiş görünür. Bu gün Bakı təkcə Azərbaycanın paytaxtı deyil, həm də regionun urbanizasiya mərkəzidir. "Sea Breeze", Ağ şəhər, yeni parklar və müasir nəqliyyat sistemi ölkənin gələcəyə baxışını nümayiş etdirir.

Görünən budur ki, Bakı artıq keçmişin sənaye şəhəri obrazından çıxaraq insan və ətraf mühit harmoniyasını prioritet seçən müasir metropolis modelinə doğru irəliləyir.

Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilməsi də təsadüfi deyil. Bu, Azərbaycanın artıq şəhərsalma mövzusunda yalnız öyrənən deyil, eyni zamanda təcrübəsini bölüşən tərəfə çevrildiyini nümayiş etdirir.

Şəhərlər dövlətlərin vizit kartıdır. Bakı isə son illərdə göstərdi ki, düzgün yanaşma və strateji baxış olduqda, hətta ən çətin urbanistik mirası belə yeni inkişaf modelinə çevirmək mümkündür".

**Şəymən Bayramova**



# Hələ 100 minlərlə insanın güzəştli ipotekaya ehtiyacı var

## İnsanlara bu mexanizmdən daha çox istifadə etmək üçün imkan və fürsətlər yaradılmalıdır

**WUF13 çərçivəsində keçirilən "Mənzil Maliyyələşdirməsi üçün Yeni Bir Saziş" sessiyasında maliyyə nazirinin birinci müavini Anar Kərimov bildirib ki, Azərbaycanda 58 min ailə ipoteka mexanizmi ilə mənzil sahibi olub. Onun sözlərinə görə, mənzil siyasəti yalnız binalarla deyil, insanların gələcəyi, sosial inklüzivlik və imkan bərabərliyi ilə bağlıdır.**

Dünyada yaxın 20 ildə təxminən 3 milyard insanın mənzilə ehtiyacı yarana bilər və bu səbəbdən mənzil maliyyəsinin əlçatan, inklüziv və maliyyə baxımından dayanıqlı olması vacibdir. A.Kərimov qeyd edib ki, Azərbaycan son 20 ildə sosial inklüzivlik və maliyyə dayanıqlığını birləşdirən mənzil maliyyələşməsi sistemi formalaşdırıb. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu ölkənin daxili mənzil maliyyələşməsi sisteminin əsas institusional dayaqlarından birinə çevrilib. Fond vasitəsilə indiyədək 58 mindən çox ipoteka krediti və 9 min kirayə mexanizmi ilə mənzil satışı maliyyələşdirilib.

**Açıqlanan statistikanı şərh edən iqtisadçı Natiq Cəfərli "Şərq"ə bildirdi ki, əgər həqiqətən də 58 min insan mənzil problemini İpoteka Fondu hesabına həll edibsə, deməli, işlək mexanizmdir:**

- Amma problem bundadır ki, bizdə sosial ipotekaya, güzəştli ipotekaya ehtiyacı olanların sayı həddindən artıq çoxdur. Bəlkə 100 minlərlə insanın buna ehtiyacı var. Ona görə də bu mexanizm genişləndirilməli, əlçatanlığı artırılmalı və insanlara bu mexanizmdən daha çox istifadə etmək üçün imkan və fürsətlər yaradılmalıdır. Sosial ipoteka 4 faizdir, ailə ipotekası 8 faizdir, kommersiya ipotekası isə bankdan banka dəyişir, fərqlidir. 4 faizli ipoteka yaxşıdır, amma təəssüf ki, bunun üçün ayrılan vəsait çox azdır. Buna çıxış yolu axtaran, bunu istəyən və buna haqqı çatan insanların sayı isə çoxdur.

**Məlahət Rzayeva**

# Qorxulu iqlim ssenarisi üçün əsas yoxdur

## Ekoloq: "İqlim dəyişiklikləri ilə bağlı cəmiyyətdə əsassız qorxu yaradılır"

**"Deyirlər ki, Xəzər dənizi istiləşir və bunun nəticəsində böyük təhlükələr yaranacaq. Əgər həqiqətən ciddi istiləşmə olsaydı, bunun əlamətləri daha aydın görünərdi. Xəzərin müəyyən hissələrində suyun geri çəkilməsi müşahidə olunur, amma bu, elə də fövqəladə bir vəziyyət demək deyil. Xəzər istiləşdikcə buxarlanma artır, amma bu, avtomatik olaraq dağıdıcı yağışlar demək deyil. Üstəlik, Xəzər yarımsəhra zonasında yerləşir, yalnız kiçik bir hissəsi mülayim qurşaqdadır. Buna görə də qorxulu ssenarilər yaratmaq düzgün deyil".**

**Bu fikirlər AMEA Coğrafiya İnstitutunun şöbə müdiri, ekoloq Ənvər Əliyevə məxsusdur. "Şərq"ə açıqlamasında mütəxəssis bildirdi ki, qlobal iqlim dəyişikliyinin elmi əsasları hər zaman tam aydın təqdim olunmur. Əldə konkret sübutlar olmadan cəmiyyətdə qorxu yaratmaq doğru deyil:**

- Məsələn, vaxtilə Parisdə keçirilən beynəlxalq konfranslarda da bu mövzular geniş müzakirə olunub. Orada iştirak edən bəzi alimlər qeyd edirdilər ki, müəyyən bölgələrdə buz ehtiyatlarında artım müşahidə olunur. Yəni vəziyyət hər yerdə eyni deyil və hər şeyi birtərəfli təqdim etmək olmaz. Bizdə də tez-tez deyirlər ki, quraqlıq artacaq, Xəzər yüzlərlə metr geri çəkiləcək və s. Amma bunların çoxu ehtimallardır. Keçmişdə də kəskin hava dəyişiklikləri olub. Elə vaxtlar olub ki, Bakıda güclü qar səbəbindən insanlar işə gedə bilməyiblər. Bunlar təbiətdə həmişə baş verən proseslərdir.

**Ə.Əliyev qeyd etdi ki, yağışın Bakıda yaratdığı vəziyyət iqlimdən daha çox şəhərsalma problemləridir. Kanalizasiya sistemlərinin zəifliyi, plansız tikililər,**



**düzgün layihələndirilməmiş kommunikasiya xətləri, su axınının istiqamətinin nəzərə alınmaması - bunlar əsas səbəblərdir:**

- Güclü yağış zamanı suyun axıdılması üçün kifayət qədər infrastruktur qurulmayıb. Yağıntılar əsasən qərbdən gələn böyük hava kütlələrinin təsiri nəticəsində yaranır. Bu proseslər təbiidir və tarix boyu olub. Planet üzrə yağıntının ümumi norması ciddi dəyişməyibsə, buxarlanma balansı eyni qalırsa və Yer kürəsinin əsas astronomik parametrlərində dəyişiklik yoxdursa, onda "tamamilə yeni və qorxulu iqlim ssenarisi"ndən danışmaq üçün əsas da yoxdur. Əlbəttə, bəzi illərdə yağıntı normadan artıq ola bilər. Bu da orta statistik göstəricilərdən sapmadır və fövqəladə hadisə kimi qəbul olunmamalıdır. Yəni, hələlik təşvişə düşməyə əsas yoxdur. Belə yağışları da görmüşük, selləri də yaşamışıq. Təbiətdə dəyişkənlik həmişə olub və olacaq. Sadəcə diqqətli olmaq, faktlara əsaslanmaq və hadisələri elmi şəkildə qiymətləndirmək lazımdır. Hələlik qorxulu tendensiyalar görünmür. Qoy zaman göstərsin. Təbiət öz qanunları ilə işləyir və əgər bu qanunlarda ciddi dəyişiklik baş verməzsə, elə böyük təhlükələr gözlənilmir.

**Məlahət Rzayeva**

# Neft ölkəsində turizm

## Şaxələnmiş iqtisadiyyatın strateji Lahıc modeli



**Neft və qazla zəngin olan bir ölkədə turizmin ön plana çıxması, həmin dövlətin iqtisadi şaxələndirmə siyasəti apardığını və uzun müddətli dayanıqlı inkişafı hədəflədiyini əsas göstəricisidir. Bu təbii resursların tükənən olması faktını nəzərə alaraq, neftdən asılılığı azaltmaq və gəlir mənbələrini şaxələndirmək cəhdidir.**

Təsəvvür edək ki, böyük bir mirasın sahibiyik və bu miras bizə hər ay kifayət qədər gəlir gətirir. Lakin bir gün bu gəlirin bitməsini və ya dəyərini itirəcəyini bilirik. Ağıllı insan bu halda nə etməli? Təbii ki, həmin gəliri elə bir işə yatırar ki, miras bitəndə də həyatı eyni keyfiyyətdə davam etsin. Neft və qaz ölkələrinin bu gün turizmə verdiyi önəm tam olaraq bu məntiqlə bağlıdır.

İqtisadi şaxələnmə adlandırdığımız bu proses, əslində gəliri bir yerdə yığıb gizlətmək fikrinin yanlış olduğunu bildirməkdir. Neft və qaz yerin altında gizlənən və gec tez tükənən sərvətdir. Üstəlik, onların qiyməti bizdən asılı olmadan uzaq ölkələrdə müəyyənləşdirilir. Turizm isə yerin üstündəki tükənməz xəzinədir: ölkənin təbiəti, tarixi, dadlı mətbəxi, sənətkarlığı və insanpərvərliyidir. Bu sahəni ön plana çəkmək, ölkənin sadəcə xammal ixrac edən bir "yanacaqdoldurma məntəqəsi" olmaqdan çıxarıb, dünyaya öz mədəniyyətini və xidmətini satan müasir bir brendə çevrilməsidir.

Bu keçidin ən gözəl və canlı nümunəsini görmək üçün uzağa getməyə ehtiyac yoxdur; Qafqaz dağları qoynunda gizlənən İsmayıllı rayonunun Lahıc qəsəbəsinə baxmaq kifayətdir. Lahıc bizə sübut edir ki, bir ölkənin ən böyük sərvəti onun nefti deyil, əsrlərlə qoruyub saxladığı sənətkarlıq irsi və onun ruhudur. Daş döşənmiş dar küçələri, çəkic səslərinin əks olunduğu misgərlik və dəmirçilik emalatxanaları, xalçaçılıq sexləri, dabbağlıq, sərraclıq və digər sənət növləri bizi keçmişin dərinliklərinə aparır. Bura təkcə sənətkarlıq mərkəzi deyil, həm də insanın əməyi ilə təbiətin və tarixin necə harmoniyada ola biləcəyinin canlı sübutudur. Sənətkarlıq nümunələri burda sadəcə bir peşə deyil, nəsildən nəslə ötürülən bir mənəvi mirasdır.

Neft ölkəsi olaraq biz bu qədim sənət ocaqlarını qoruyub dünyaya təqdim etməklə göstəririk ki, bizim iqtisadiyyatımız sadəcə boru kəmərləri üzərində deyil, həm də ustad sənətkarların əl əməyi, Lahıcın qədim memarlığı və insanların səmimiyyəti üzərində yüksəlir.

Turizmin ən böyük möcüzəsi onun "zəncirvari" təsirində gizlənir. Neft quyusunda işləmək üçün məhdud sayda mühəndis lazımdır. Lakin Lahıc kimi turizm mərkəzlərində bir turistin gəlməsi yüzlərlə insana iş yeri verir. Yerli sənətkar istehsal etdiyi malları satırlar, ev sahibi qonaq qarşılayır, fermer öz təbii məhsullarını təqdim edir. Beləliklə dövlət neftdən qazandığı vəsaiti bu cür tarixi məkanların infrastrukturlarına yatırmaqla, əslində həmin pulları birbaşa vətəndaşların gündəlik rifahına və qədim sənətlərin yaşamasına yönəldilmiş olur.

Nəticə etibarı ilə, neft ölkəsində turizmin, xüsusən də Lahıc kimi nadir incilərin parlaması bir qurtuluş və inkişaf strategiyasıdır. Bu dünyaya "sadəcə neftimiz yox,həmdə köklü bir tariximiz var" mesajını verməkdir. Neft çıxarıldığı yerdə qala bilər, amma Lahıcın küçələrindəki o canlı ruh bütün ölkəni hərəkətə gətirən sönməz bir enerjidir. Çünki yerin altındakı sərvət bizə bu günü bəxş edirsə, yerin üstündə qoruduğumuz dəyərlər bizi gələcəyə daşıyır. Unutmayaq ki, dünya qarşısına sadəcə qazandığımız qızılın miqdarı ilə deyil, qonağımızla paylaşdığımız bir tikə çörəyin və yaşatdığımız bir sənətin ehtiramı ilə ucalırıq. Neft bizi zəngin edə bilər, lakin bizi biz edən və dünyada tanıdan - tariximizə açılan o pəncərə, qəlbimizdəki o bitməz qonaqpərvərlik enerjisidir.

**Ağaməşədi Əliyev,**
**Lahıc DTMQ-nin elmi işçisi**

**ELAN**

Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kollecinin 2-ci kurs tələbəsi Məhərrəmzadə Fatimə Fariz qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun I müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, Nihat Müzəffər, Banuçiçək Kalbalıyeva, Aybəniz Səfərova, Elmar İbrahimli

Texniki heyət:
Xaqani Kosayev, Pərvin İbrahimov
İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50,
Elan, reklam - mob: (050) 313-82-83,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 641



## Sensasiyalı UFO iddiası

“4 fərqli yadplanetli növü aşkarlanıb”

**CIA ilə əlaqəli keçmiş tədqiqatçı Hal Puthoff ABŞ-nin araşdırdığı iddia edilən UFO qalıqlarında ən azı dörd fərqli “yadplanetli varlıq” növünün müəyyən edildiyini açıqlayıb.**

“Şərq” xəbər verir ki, Pentaqonun sabiq məsləhətçilərindən olan Puthoff bildirib ki, qəza materiallarını araşdıran şəxslər müxtəlif növlərin mövcudluğunu iddia edirlər. O, məlumatları birbaşa görmədiyini, lakin əlaqədə olduğu şəxslərin buna inandığını deyib.

Bununla yanaşı, iddiaları təsdiqləyən hər hansı elmi və ya fiziki sübutun olmadığı vurğulanıb. NASA isə daha əvvəl Yer kürəsindən kənar həyatın mövcudluğunu təsdiqləyən sübut olmadığını açıqlamışdı.

Mövzu, keçmiş ABŞ kəşfiyyat zabiti David Qrusçun 2023-cü ildə Konqresdə “insan mənşəli olmayan bioloji qalıqlar” barədə verdiyi ifadələrdən sonra yenidən gündəmə gəlib.

## Su çəkildikcə dərələrdə qram-qram qızıl yığırlar

**Türkiyənin Aydın, Manisa, Dənizli və Uşak bölgəsində yaşayan və sosial şəbəkə vasitəsilə birləşən “qırıntı mədənçiliyi” həvəskarları Aydının Germencik rayonundakı çay yataqlarında qızıl axtarmağa başlayıblar.**



“Şərq” xəbər verir ki, sadə avadanlıqlarla aparılan axtarışlarda iştirak edənlər bəzən günlərlə çalışaraq az miqdarda qızıl əldə edir, bəzən isə əliboş geri qayıdırlar.

Qızıl axtarışında ən çox istifadə olunan üsullar “tava (pan)” və “savaq” sistemidir. Tava üsulunda çay yatağındakı qum su ilə yuyulur, yüngül hissələr uzaqlaşır, qızıl isə dibdə qalır. Savaq üsulunda isə su axını ilə qızılın müəyyən nöqtələrdə toplanması təmin edilir.

Bu fəaliyyət “qırıntı mədənçiliyi” adlanır və rəsmi icazə ilə həyata keçirilir. Bəziləri üçün hobi, bəziləri üçün isə əlavə qazanc mənbəyi sayılır.

## Əti sərtləşdirmədən necə bişirməli?

Dadlı və yumşaq ətin sirləri açıqlanıb



**Ətin yumşaq və şirəli alınması üçün bir neçə vacib qaydaya əməl etmək lazımdır.**

“Şərq” xəbər verir ki, ən əsas üsul əti əvvəlcə yüksək odda “möhürləməkdir”. Bu zaman ətin suyu içəridə qalır və qurumur.

Marinad da mühüm rol oynayır. Xüsusilə dana əti limon suyu, sirkə və ya qatıq suyu ilə bir gecə saxlanıldıqda daha yumşaq olur. Duz isə bişirmənin əvvəlində yox, sona yaxın əlavə edilməlidir. Əks halda ət sərtləşə bilər.

Mütəxəssislər bildirirlər ki, bişmiş əti dərhal doğramaq olmaz. Əti oddan götürdükdən sonra 3-5 dəqiqə dincə qoymaq onun şirəsini qoruyur.

Dana əti daha uzun müddətdə bişirildiyi üçün antrikot və bonfile kimi yumşaq hissələrə üstünlük verilir. Quzu əti isə daha tez bişir və zəif odda uzun müddət saxlandıqda lokum kimi yumşaq olur.

İzqara zamanı ətə çəngəl yox, maşa ilə toxunmaq məsləhətdir. Tavada bişirərkən tava əvvəlcədən yaxşı qızdırılmalı, ət isə tez-tez çevrilməməlidir.

## “8 illik əzab bitdi”

Şakira vergi işi üzrə tam bəraət aldı

**Dünya şöhrətli müğənni Şakira İspaniyada illərlə davam edən vergi işi üzrə məhkəməni qazanıb.**



“Şərq” xəbər verir ki, məlumata görə, İspaniya Ali Məhkəməsi məşhur müğənnini vergi fırıldaqçılığı ittihamı üzrə bəraətə layiq görüb və 2021-ci ildə tətbiq edilən 55 milyon avroluq cəriməni ləğv edib.

Qərara əsasən, Şakiranın daha əvvəl ödədiyi məbləğ faizlə birlikdə geri qaytarılacaq. Bildirilir ki, geri ödənəcək vəsaitin ümumi həcmi 60 milyon avronu keçəcək.

İspaniya Vergi Xidməti müğənninin futbolçu Cerard Pique ilə münasibətinə görə 2011-ci ildən ölkədə yaşadığını və vergi ödəyicisi hesab olunmalı olduğunu iddia edirdi. Lakin məhkəmə Şakiranın həmin il vergi rezidenti sayılması üçün tələb olunan 183 günü İspaniyada keçirmədiyi qənaətinə gəlib.

Məhkəmə həmçinin vergi orqanlarının tətbiq etdiyi cərimələrin hüquqa zidd olduğunu bildirib.

Müğənninin vəkili Jose Luis Prada qərardan sonra açıqlamasında bunun “səkkiz illik əzablı prosesin sonu” olduğunu deyib və vergi orqanlarını qeyri-dəqiq inzibati yanaşmada ittiham edib.



# Cibimizdəki təhlükə

Doğum göstəriciləri niyə hər yerdə eyni anda azalır?

**“Financial Times” qəzetinin araşdırmasına görə, dünyada doğum göstəricilərinin eyni vaxtda aşağı düşməsində smartfonlar və sosial medianın yayılması mühüm rol oynayır. Araşdırmada bildirilir ki, rəqəmsal media insanların üzbəüz ünsiyyətini azaldır, bu isə romantik münasibətlərə və nəticədə doğuş saylarına mənfi təsir göstərir.**

”Şərq” xəbər verir ki, məlumata görə, dünya üzrə 195 ölkənin üçdə ikisindən çoxunda qadın başına düşən uşaq sayı əhalinin sabit qalması üçün lazım olan 2,1 səviyyəsindən aşağı enib. 66 ölkədə isə bu göstərici artıq bir uşağa yaxınlaşıb.

Xüsusilə Cənubi Koreya nümunəsi diqqət çəkir. BMT 2023-cü ildə ölkədə 350 min doğum proqnozlaşdırsa da, real rəqəm cəmi 230 min olub. Bu, azalmanın gözləniləndən qat-qat sürətli getdiyini göstərir.

Araşdırmada vurğulanır ki, problem artıq yalnız zəngin ölkələrin deyil. Meksika, Braziliya, İran, Tunis və Şri- Lanka kimi ölkələrdə də doğum göstəriciləri sürətlə azalır. Mütəxəssislər bunu “zənginləşmədən qocalan cəmiyyət” problemi kimi qiymətləndirirlər.

Tədqiqatçılar bildirirlər ki, iqtisadi səbəblər - mənzil böhranı, yüksək yaşam xərcləri, uşaq böyütməyin bahalaşması mühüm amillər olsa da, təkbaşına kifayət etmir. ABŞ və İngiltərədə 4G internetin yayılmasından sonra doğum göstəricilərinin ən sürətli şəkildə məhz internet istifadəsinin artdığı bölgələrdə azaldığı qeyd olunur.

Ekspertlərə görə, smartfonlar gənclərin sosiallaşmasını zəiflədir:

*insanlar daha az üzbəüz görüşür;*
*münasibət qurmaq gecikir;*
*evlilik yaşı artır;*
*tək yaşayanların sayı çoxalır.*

Demoqraf Liman Stonun sözlərinə görə, “evlənəcəyin insanı tapmaq üçün çox insanla tanış olmaq lazımdır. Daha az sosiallaşanda uyğun tərəfdaş tapmaq daha uzun çəkir”.

Araşdırmada sosial medianın xüsusilə gənc qadınların münasibətlərə dair gözləntilərini dəyişdirdiyi də vurğulanır. İnstaqram və TikTok kimi platformaların münasibətlərə dair standartları yüksəltdiyi, bunun isə kişi və qadınlar arasında ideoloji və sosial fərqləri dərinləşdirdiyi bildirilir.

Mütəxəssislər hesab edir ki, doğuşların azalması gələcəkdə işçi qüvvəsinin kiçilməsinə, iqtisadi artımın zəifləməsinə, pensiya və sosial xərclərin artmasına, yaşlı əhalinin çoxalmasına səbəb olacaq.

Xüsusilə Yaponiya nümunəsi göstərilir. Ölkənin uzunmüddətli iqtisadi durğunluğunun əsas səbəblərindən biri kimi aşağı doğum səviyyəsi və əmək qabiliyyətli əhalinin azalması göstərilir.

“Cibimizdəki təhdid” ifadəsi ilə nəzərdə tutulan əsas məsələ smartfonlar və rəqəmsal həyatın insanların sosial davranışlarını dəyişdirməsidir. Son illərdə dünyanın bir çox ölkəsində doğum göstəricilərinin eyni vaxtda azalmasının səbəbi kimi bir neçə amil göstərilir:

*iqtisadi çətinliklər,*
*mənzil böhranı,*
*evlilik yaşının yüksəlməsi,*
*sosial medianın təsiri,*
*insanların daha az sosiallaşması.*

”Financial Times” tərəfindən yayımlanan araşdırmada qeyd olunur ki, smartfon və sosial media istifadəsinin artması gənclərin üzbəüz ünsiyyətini azaldıb. Bu isə romantik münasibətlərin qurulmasını çətinləşdirir və ailə qurma prosesini gecikdirir.

Araşdırmalara görə, 4G internetin yayılmasından sonra doğum göstəricilərində sürətli eniş başlayıb.

Gənclər əvvəlki nəsillərlə müqayisədə daha az görüşür və daha gec evlənirlər. Xüsusilə İnstaqram və TikTok kimi platformalar münasibətlərə dair gözləntiləri dəyişdirib.

Mütəxəssislər bildirirlər ki, problem yalnız zəngin ölkələrdə deyil. Meksika, Braziliya, İran, Tunis və Şri- Lanka kimi ölkələrdə də doğum səviyyəsi sürətlə aşağı düşür.

Ekspertlərin fikrincə, aşağı doğum göstəriciləri gələcəkdə işçi qüvvəsinin azalmasına, iqtisadi artımın zəifləməsinə, yaşlı əhalinin artmasına, sosial xərclərin çoxalmasına səbəb ola bilər.

Demoqraflar hesab edir ki, insanların çoxu hələ də ailə və uşaq sahibi olmaq istəyir, lakin müasir həyat tərzi, iqtisadi yük və rəqəmsal dünyanın təsiri buna mane olur.



# Arılar haqqında...

Bilmədiyiniz 15 maraqlı fakt

**“Şərq” ”20 may - Dünya Arılar Günü” münasibətilə bağlı maraqlı məlumatlar təqdim edir:**

1. Bal pətəyi mühəndislik möcüzəsidir. Pətək gözlərinin divarları millimetrin onda birindən də nazik olsa da, öz çəkisindən yüzlərlə dəfə ağır olan balı daşıya bilir.

2. Bir arının ömür boyu istehsal etdiyi bal çox azdır. Araşdırmalara görə, bir arı həyatı boyunca təxminən bir çay qaşığı balın yalnız 1/12 hissəsini hazırlayır.

3. Arılar pətəyi təbii şəkildə havalandırırlar. Yüzlərlə arı qanad çırparaq çirkli havanı çölə çıxarır, sonra isə təmiz havanın içəri daxil olmasını təmin edir.

4. Bal arısının mədəsi çox kiçikdir. Təxminən sancaq başı böyüklüyündə olan mədəni bir arı bir yüksük dolusu bal toplamaq üçün 60 dəfə doldurub boşaltmalıdır.

5. Yarım kiloqram bal üçün milyonlarla çiçək lazımdır. Arılar bunun üçün təxminən 2 milyon çiçəyi ziyarət edir və 88 min kilometrdən çox məsafə qət edirlər.

6. Bir pətək gözünü doldurmaq üçün 100 milyona yaxın çiçəkdən nektar toplanır.

7. İki kiloqram bal istehsalı üçün arılar Yer ilə Ay arasındakı məsafəyə bərabər yol qət edə bilirlər.

8. Arıların vızıltısı qanadlardan deyil, əsasən döş qəfəsindəki əzələlərin hərəkətindən yaranır. Qanadlar dəqiqədə təxminən 11 400 dəfə çırpılır.

9. Bal arılarının beş gözü var. İki mürəkkəb göz başın yanlarında, üç sadə göz isə başın üst hissəsində yerləşir.

10. Bal qədimdən təbii müalicə vasitəsi kimi istifadə olunub. Birinci Dünya müharibəsi dövründə yaraların sağalmasına kömək etmək üçün baldan istifadə edilirdi.

11. Yalnız dişi arılar sancır. Çünki sancaq yalnız onlarda olur. Bal arısı sancdıqdan sonra adətən həyatını itirir.

12. Arıların beyni kiçik olsa da, mürəkkəb quruluşa malikdir. Hər arının beynində təxminən 1 milyon neyron mövcuddur.

13. Arılar “elektrik izləri” qoyurlar. Polen topladıqları çiçəklərdə yaranan elektrik sahəsi digər arılara həmin çiçəyin artıq ziyarət edildiyini bildirir.

14. Kraliça arı xüsusi kimyəvi maddə ifraz edir. Bu maddə koloniyadakı bütün arılar tərəfindən tanınır və onların eyni qoxuya malik olmasını təmin edir.

15. Məhz bu qoxu sayəsində koloniyanın üzvləri bir-birini tanıyır. Pətəyə daxil olan yad arılar isə dərhal müəyyən edilərək qovulur.

**Hazırladı:**
**Turan**

## Z nəslin gələcək qorxusu böyüyür

Süni intellekt gənclər arasında ciddi təşviş yaradır

**Süni intellekt texnologiyalarının sürətlə yayılması əmək bazarında ciddi dəyişikliklərə səbəb olur. Aparılan araşdırmalar isə göstərir ki, bu proses xüsusilə Z nəsli arasında narahatlıq və gələcəklə bağlı qeyri-müəyyənliyi artırır.**

“Şərq” xəbər verir ki, ABŞ-də keçirilən məzuniyyət mərasimlərində süni intellekti “qaçılmaz inqilab” kimi təqdim edən çıxışlar tələbələrin etirazı ilə qarşılanıb. Mütəxəssislər bunu gənclərin iş yerlərini itirmək qorxusu ilə əlaqələndirirlər.



Bu narahatlıqları gücləndirən amillərdən biri də iri şirkətlərin süni intellektə keçid fonunda işçi ixtisarlarına başlamasıdır. Bir sıra beynəlxalq şirkətlər minlərlə iş yerinin ləğv ediləcəyini açıqlayıb.

“Gallup”un son hesabatına görə, 1997-2012-ci illərdə doğulan gənclərin süni intellektə münasibətində mənfi tendensiya güclənib. 2025-ci ildə bu texnologiyaya ümidlə yanaşanların payı 36 faiz olduğu halda, 2026-cı ildə bu göstərici 22 faizə enib. Araşdırmaya əsasən, Z nəslinin 42 faizi süni intellektlə bağlı narahatlıq keçirdiyini bildirib.

Sorğuda iştirak edənlərin təxminən yarısı süni intellektin risklərinin faydalarından daha çox olduğunu düşünür. Gənclərin bir qismi isə bu texnologiyanın yaradıcılığa və dərin öyrənmə bacarıqlarına mənfi təsir göstərdiyini hesab edir.

Bununla belə, texnologiya sahəsinin nümayəndələri süni intellektin yaratdığı dəyişikliklərin qaçılmaz olduğunu və yeni şəraitə uyğunlaşmağın vacibliyini vurğulayırlar.